RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 79 (9246) 16 APREL 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR







# İlham Əliyevin qlobal missiyası

## Azərbaycan Prezidenti Türk Dövlətləri Təşkilatının vahid güc mərkəzinə çevrilməsi üçün mühüm təşəbbüslər irəli sürür

**Türkdilli ölkələr arasında strateji tərəfdaşlığın yeni inkişaf mərhələsinə qədəm qoyması Türk Dövlətləri Təşkilatının getdikcə vahid güc mərkəzinə çevrildiyini söyləməyə əsas verir.**

Artıq bir müddətdir ki, türkdilli dövlətlərin başçıları arasında təmasların yeni formatda davam etdiyini müşahidə edirik. Təmasların mütəmadi xarakter almasında Azərbaycan Prezidentinin yüksək fəaliyyəti danılmazdır. İlham Əliyev türkdilli dövlətlərlə əlaqələrin inkişaf etdirilməsini mühüm prioritet məsələlərdən biri hesab edir və qardaş ölkələrlə iqtisadi, siyasi, humanitar, həmçinin digər sahələr üzrə əməkdaşlığın genişləndirilməsi istiqamətində məqsədyönlü siyasət yürüdür.

### Azərbaycanın türk dünyasında aparıcı mövqeyi daha da güclənir

2009-cu il oktyabrın 3-də Naxçıvanda Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (indiki adı Türk Dövlətləri Təşkilatı) yaradılması ilə əsası qoyulan bu birliyin üzvləri bütün beynəlxalq təşkilatlarda hər zaman bir-birini dəstəkləyir, eyni zamanda, ölkələr arasında iqtisadi, siyasi əlaqələr durmadan genişləndirilir.

2022-ci il dekabrın 14-də Türkmənistanda Azərbaycan-Türkiyə-Türkmənistan prezidentlərinin ilk üçtərəfli görüşü və aparılan danışıqlar, imzalanan sənədlər TDT-nin artıq vahid güc mərkəzinə çevrilməsi istiqamətində atılan mühüm addım idi.

Həmin gün imzalanan sənədlər sırasında "Energetika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı qarşılıqlı anlaşmaya dair Qurumlararası Memorandum"a əsasən hər üç dövlət birgə layihə reallaşdıracaq. Bu, Trans-Xəzər qaz kəmərinin reallaşması istiqamətində birgə razlaşdırılan mühüm sənəd oldu.

Ümumiyyətlə, təşkilata üzv dövlətlərin yerləşdiyi coğrafiyaya nəzər salsaq görərik ki, bu ölkələr Asiya ilə Avropanı birləşdirən bir ərazidə yerləşir. Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin təbii ehtiyatları çox zəngindir və bu təbii ehtiyatlar 23 dövlətin üzv olduğu Avropa İttifaqı ölkələrinin təbii ehtiyatlarından azı iki dəfə çoxdur. Bu baxımdan üzv ölkələr qarşılıqlı sərmayə yataraq iqtisadi əlaqələri daha sıx şəkildə qurmaq barədə razılığa gəliblər.

→ 2

## *XİN:* "Bayrağımızın yandırılması Ermənistanda Azərbaycana qarşı etnik zəmində kök salmış nifrətin təcəssümüdür"

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Bayrağının Ermənistanda ağırlıqqaldırma üzrə Avropa çempionatı zamanı yandırılması ilə bağlı məsələyə münasibət bildirib.**

Bu barədə AZƏRTAC-a XİN-in Mətbuat xidməti idarəsindən məlumat verilib. Məlumatda deyilir: "Aprelin 14-də Ermənistanın paytaxtı İrəvanda keçirilən ağırlıqqaldırma üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan Bayrağı yandırılıb.

Ermənistanda Azərbaycana qarşı etnik zəmində kök salmış nifrətin təcəssümü olan bu aktı qətiyyətlə pisləyirik.

Ermənistan hökuməti tədbiri təşkil edən tərəf kimi bu kimi hadisələrin qarşısını vaxtında almalı və müvafiq təhlükəsizlik tədbirləri görməli idi. Bu aktı törətmiş şəxs ilkin olaraq saxlanılsa da, sonradan təmtəraqlı alqışlarla azad edilməsi ciddi narahatlıq doğurur. Ermənistan tərəfi nifrət zəminində bu cinayəti törətmiş şəxsi dərhal məsuliyyətə cəlb etməlidir.

Beynəlxalq Ağırlıqqaldırma Federasiyası, Beynəlxalq Olimpiya Komitəsi və digər aidiyyəti beynəlxalq qurumlar tərəfindən idman yarışları üzrə qəbul edilmiş davranış qaydalarının kobud pozuntusu olan bu hərəkəti qəti şəkildə pisləməyə, qaydalar çərçivəsində təşkilatçılara qarşı müvafiq cəza tədbirlərinin görülməsinə çağırırıq".

## Daha bir erməni vandallığı

### Hayastanda keçirilən Avropa çempionatının açılış mərasimində Azərbaycan Bayrağının yandırılması bu ölkənin təxribatçı simasının əyani təzahürüdür

**2015-ci ildə Bakıda keçirilən I Avropa Oyunlarında Prezident İlham Əliyevin Ukraynanı təmsil edən gümüş medal qazanmış erməniəsilli boksçunu şəxsən özünün təltif etməsi və o zaman auditoriyanı sakitləşdirməsi yaddaşlara xoş xatirə, eləcə də Azərbaycan tolerantlığına bariz nümunə kimi həkk olunan unudulmaz tarixdir.**

Amma bunun qarşılığında 2023-cü il aprelin 14-də Hayastanda keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində dünyanın gözü qarşısında Azərbaycanın Dövlət Bayrağı yandırıldı.

Beynəlxalq idman yarışları idmançıların öz performanslarını dünya səviyyəli arenalarda sərgiləmələri üçün təşkil olunur, həm də bu yarışların keçirilməsi dünyada barışı, sülhü, dostluğu simvolizə edir. Və yuxarıda misal çəkdiyimiz beynəlxalq idman yarışlarında baş verən bir-birinə zidd iki nümunənin timsalında da açıq-aydın görünür ki, Azərbaycan hər zaman sülhün, barışın, Hayastan isə müharibənin, təxribatların tərəfdarıdır.



### Hayastanın ölkəmizə qarşı təxribatları intensivləşib

İrəvan şəhərində sözügedən yarışın açılış mərasimində Azərbaycan Bayrağının rəsmi akkreditasiya olunmuş şəxs tərəfindən nümayişkaranə şəkildə yandırılması ilə bağlı Gənclər və İdman Nazirliyi və Milli Olimpiya Komitəsi birgə bəyanat yayıb.

→ 5

## Erməni xisləti dəyişmir ki, dəyişmir

### Azərbaycanın humanizm addımlarından dərs götürməyən Hayastan əsl simasını bir daha dünyaya nümayiş etdirdi

**XX əsrin əvvəllərindən xalqımızın başına gətirilən soyqırımı hadisələri hayların vəhşiliyini dünyaya nümayiş etdirmişdi.**

Torpaqlarımız işğaldan azad olunduqdan sonra Qarabağ və Şərqi Zəngəzurda qarşılaşdığımız dəhşətli mənzərələr isə onu göstərdi ki, vəhşi barbarlardan insani hərəkət gözləmək mümkün deyil. Erməni xisləti heç zaman dəyişməyib, belə getsə, dəyişməyəcək də.

Birinci Qarabağ müharibəsindən bəri taleyi məlum olmayan 4 minə yaxın əsir və girovlarımız haqqında indiyədək heç bir məlumat verilməməsi də hayların niyyətini, beynəlxalq hüquq və normaları necə tapdaladığını nümayiş etdirir.

→ 5

## Ekoloji terror dayandırılsın!



→ 8

## Füzulidə quruculuq işləri sürətlənir

Füzuli rayonunda qısa müddət ərzində ən yüksək beynəlxalq standartlara cavab verən hava limanı inşa edilərək istismara verilib, Zəfər yolunun çəkilişi yekunlaşıb, Füzuli yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi tikilib. Həmçinin Özbəkistan tərəfindən inşa edilən tam orta məktəb binasının, Qazaxıstan tərəfindən inşa edilən Kurmanqazı adına Yaradıcılıq İnkişaf Mərkəzinin, Mənzil İnşaatı Dövlət Agentliyinin inşa etdiyi yaşayış məhəlləsinin və s. obyektlərin tikintisi sürətlə davam edir. Bütövlükdə tikiləcək evlərə 21593, o cümlədən Füzuli şəhərinə 8009 nəfər əhalinin köçürülməsi planlaşdırılır.

"İşğaldan azad edilmiş ərazilərdə əhalinin dayanıqlı məşğulluğunun təmin edilməsinə dair" Tədbirlər Planı, müvəqqəti yerləşdirilən kamplar, "Böyük Bəhmənli-Şuşa" və "Azad Qaraqoyunlu-Ağdam" magistral qaz kəmərlərinin layihələndirilməsi, Füzuli rayonunda su anbarlarının və sutəmizləyici qurğuların layihələndirilməsi və tikilməsinin vəziyyəti, həmçinin Mədəniyyət Nazirliyinin Qələbə və Memorial parklarının layihələndirilməsi vəziyyəti barədə də söhbət edilib.

→ 7

# Milli Məclisin Sədri Sahibə Qafarova Qazaxıstan Respublikası Parlamenti Senatının Sədri ilə görüşüb





**Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində Sankt-Peterburqda Qazaxıstan Respublikası Parlamenti Senatının Sədri Maulen Aşimbayev ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə qeyd olunub ki, dost və qardaş ölkələrimiz arasında münasibətlər uğurlu inkişaf dinamikasına malikdir. Bir çox sahələri əhatə edən əlaqələrimizin inkişafında dövlət başçılarının xüsusi rolu diqqətə çatdırılaraq, vurğulanıb ki, dövlət başçılarımızın sıx münasibətləri ölkələrimiz arasında əlaqələrə mühüm töhfə verir, ikitərəfli əməkdaşlığın yüksələn xətlə inkişafına və daha da güclənməsinə xidmət edir. Azərbaycan və Qazaxıstan prezidentlərinin son illər qarşılıqlı səfərləri ikitərəfli münasibətlərə müsbət təsirini göstərib. Bu kontekstdə Prezident İlham Əliyevin 2023-cü il aprelin 10-da Qazaxıstana rəsmi səfərinin əhəmiyyəti xüsusi qeyd olunub. Diqqətə çatdırılıb ki, bu səfər zamanı iki ölkə arasında Ali Dövlətlərarası Şuranın yaradılması, imzalanmış sənədlər qarşılıqlı münasibətlərimizin daha da inkişafına xidmət edir. Bununla yanaşı, Astana şəhərində Heydər Əliyev adına küçənin açılması Qazaxıstanda Ulu Öndərin xatirəsinə olan ehtiramın göstəricisidir.

Görüşdə bildirilib ki, ölkələrimiz istər ikitərəfli formatda, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edirlər. O cümlədən TÜRKPA çərçivəsində əlaqələrin əhəmiyyəti diqqətə çatdırılıb.

Tərəflər dövlətlərarası münasibətlərin inkişafında Azərbaycan və Qazaxıstan parlamentlərinin roluna diqqət çəkərək qanunvericilik orqanlarımız arasında əlaqələrin hazırkı səviyyəsinin razılıq doğurduğunu vurğulayıblar. Bildirilib ki, son illərdə parlament rəhbərləri səviyyəsində mütəmadi qarşılıqlı səfərlərin həyata keçirilməsi əlaqələrin inkişafına xüsusi töhfə vermişdir. Həmçinin hər iki ölkənin parlamentlərində mövcud olan dostluq qruplarının fəaliyyəti müsbət qiymətləndirilib. Bildirilib ki, deputatların qarşılıqlı səfərləri, nüfuzlu beynəlxalq parlament təşkilatlarında mütəmadi görüşlərin keçirilməsi əlaqələrimizin daha da inkişafı və tərəfləri maraqlandıran məsələlərin müzakirəsi baxımından əhəmiyyətlidir.

Söhbət zamanı Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirdiyi genişmiqyaslı quruculuq və bərpa işləri, Ermənistanın regionda davamlı sülhün təmin olunmasına qarşı yönəlmiş təxribatçı hərəkətləri barədə də geniş məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də geniş fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan və İranın XİN başçıları ikitərəfli münasibətlərdə mövcud vəziyyəti müzakirə ediblər





Aprelin 14-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahian arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı nazirlər Azərbaycan və İran arasında ikitərəfli münasibətlərdə mövcud vəziyyəti müzakirə ediblər.

Tərəflər danışıqların davam etdirilməsi və zərurət olacağı təqdirdə ikitərəfli səfərlərin həyata keçirilməsinin mümkün olduğunu bildiriblər.

Nazirlər eyni zamanda regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# İlham Əliyevin qlobal missiyası

## Azərbaycan Prezidenti Türk Dövlətləri Təşkilatının vahid güc mərkəzinə çevrilməsi üçün mühüm təşəbbüslər irəli sürür

*Əvvəli 1-ci səh.*

Türkmənistanda keçirilən üçtərəfli görüşdə razılğa gəlinib ki, gələn il Ankarada Azərbaycan, Türkiyə və Türkmənistan dövlət başçılarının Zirvə görüşü keçirilsin. Bu barədə məlumat verən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan enerji sahəsində əməkdaşlıq məsələlərinin müzakirə ediləcəyini nəzərə çatdırıb. Bu Zirvə görüşündə Türkmənistan qazının Azərbaycan və Türkiyə ərazisindən tranzit keçməklə Avropaya çatdırılması ilə əlaqədar sazişin də imzalanması gözlənilir.

Azərbaycan hazırda Avropa İttifaqına 10 milyard kubmetr qaz ixrac edir. Azərbaycanın qaz ixracı üçün qurduğu infrastruktur 30 milyard qaz nəql etmək imkanına malikdir. Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) qaz kəmərləri ilə yalnız Azərbaycan deyil, eləcə də Türkmənistan qazını da Avropaya ixrac etmək mümkündür ki, bunun üçün də Trans-Xəzər qaz kəmərinin çəkilməsi zəruridir. Bu kəmərin Xəzər dənizinin dibi ilə çəkilməsi və Orta Asiya respublikalarında hasil olunan qazın Avropaya ixrac olunması hələ 1990-cı illərdən müzakirə olunurdu. Lakin Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməməsi və Avropanın qaz bazarını əlində saxlayan Rusiyanın etirazları bu layihənin həyata keçməsinə imkan vermirdi.

### TDT-nin alternativ enerji mənbəyi

Artıq dünyanın geosiyasi mənzərəsi tədricən dəyişir və Azərbaycan Prezidenti qlobal siyasətdəki dəyişikliyi düzgün qiymətləndirərək Trans-Xəzər qaz kəmərinin çəkilməsi istiqamətində zəruri addımlar atır.

Hazırda Türkmənistan 35 milyard kubmetr qaz ixrac etmək potensialına malikdir. Özbəkistan və Qazaxıstanda hasil olunan və ixrac üçün nəzərdə tutulan təbii qazın həcmi təxminən 25 milyard kubmetrə yaxındır. Göstərilən həcmdə qaz Trans-Xəzər, TANAP və TAP kəmərləri ilə nəql olunarsa Avropa enerji təhlükəsizliyi təminatını şaxələndirməklə yanaşı, alternativ enerji mənbəyi də əldə edəcəkdik. Avropa İttifaqı bu layihəni həm siyasi, həm də iqtisadi baxımdan dəstəkləyir. Avropa Komissiyasının sədr müavini Maroş Şevçoviç bəyan edib ki, Trans-Xəzər kəməri Avropa üçün olduqca böyük əhəmiyyət kəsb edir və buna görə də bu beynəlxalq layihənin reallaşmasına investisiya cəlb etməklə yardım göstərəcək.



Beləliklə, Trans-Xəzər boru xətti və bu vasitə ilə Türkmənistan və digər Orta Asiya respublikalarında hasil olunan qazın Avropaya ixrac edilməsi tam realdır. Bu layihənin həyata keçməsinin nəticəsində Azərbaycan və region dövlətləri təkcə iqtisadi dividend deyil, həmçinin siyasi zəmanət qazanacaqlar.

### İlham Əliyevin təşəbbüsü ilə Zirvə görüşü Şuşada deyil, Ankarada keçirildi

Dostluq, qardaşlıq münasibətləri getdikcə daha da güclənən, mövcud əlaqələri və qarşılıqlı əməkdaşlıqları şaxələnən türkdilli dövlətlər martın 16-da dünyaya daha bir mesaj ünvanlayaraq sarsılmaz münasibətlərinin möhkəm təməl üzərində qurulduğunu bəyan etdilər.

İmzalanan Ankara Bəyannaməsində əksini tapan ifadələr və Türk İnvestisiya Fondunun yaradılmasına dair razılaşma isə bir daha təsdiq etdi ki, dost və qardaş ölkələr çətin gündə dərhal bir-birinə lazımi dəstək verəcək və bu istiqamətdə əlindən gələni əsirgəməyəcək.

Türk Dövlətləri Təşkilatının dövlət başçılarının Zirvə görüşünün mədəniyyətimizin paytaxtı Şuşada keçirilməsi nəzərdə tutulmuşdu. Lakin Prezident İlham Əliyev Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar qardaş ölkəyə dəstək məqsədilə Zirvə görüşünün Ankarada keçirilməsi təklifi ilə çıxış etmişdi.

Azərbaycan Prezidentinin bu xoşməramlı təklifindən sonra digər iştirakçı ölkələrin rəhbərliyi ilə razılaşdırıldıqdan sonra bununla bağlı müvafiq qərar qəbul olunmuş və İlham Əliyevin təklifi dəstəklənmişdi. Əlbəttə ki, bu, ilk növbədə bir daha Azərbaycan-Türkiyə qardaşlığının, türk dünyasında qarşılıqlı dəstəyin və hörmətin bariz nümunəsidir.

İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsini Azərbaycanın xarici siyasətinin prioritetlərindən olduğunu bəyan edib. Ötən ilin noyabrında Türkdilli Dövlətlər Təşkilatının Səmərqənddə keçirilən IX Zirvə görüşündə dövlət başçısı vurğulayıb ki, Azərbaycan həmişə türkdilli dövlətlərin sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da türk dünyasının birliyi amallarına sadiq qalacaq.

Ankara Zirvə görüşündə türkdilli ölkələr arasında iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verəcək qərarların qəbul olunması da TDT-nin vahid güc mərkəzinə çevrilməsi isiqamətində atılan mühüm addımlardan biridir. Bu qərarlardan biri Türk İnvestisiya Fondunun yaradılmasıdır. Bu fond üzv ölkələr arasında infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, turizm, alternativ enerji və digər sahələrdə əməkdaşlığın daha da inkişafına mühüm töhfə verəcək.

### "Orta dəhliz"in inkişafına dair yol xəritəsinin səmərəli reallaşdırılması

Prezident İlham Əliyevin aprelin 10-da Qazaxıstana səfəri TDT-nin səmərəli fəaliyyətinə daha bir töhfə verdi.

Prezident Kasım-Jomart Tokayevlə Azərbaycan Prezidentinin apardığı danışıqlarda mühüm məsələlər müzakirə mövzusu oldu və dövlət başçıları aidiyyəti strukturlara mühüm proseslərin gerçəkləşdirlməsi istiqamətində tapşırıqlar verdilər.

Ümumiyyətlə, Azərbaycan-Qazaxıstan münasibətləri yeni inkişaf mərhələsindədir və bu, strateji tərəfdaşlıq səviyyəsinədək yüksəlib. Yarım ildən bir qədər çox əvvəl iki ölkə arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və müttəfiqlik münasibətlərinin genişləndirilməsinə dair Bəyannamə, 2022-2026-cı illər üçün əməkdaşlığın inkişafına dair kompleks proqram və bir sıra başqa sənədlər imzalanıb. İkitərəfli münasibətlərin kompleks şəkildə möhkəmlənməsinə xidmət edən Ali Dövlətlərarası Şuranın təsis edilməsi də mühüm qərardır.

Səfər zamanı dövlət başçılarının iştirakı ilə imzalanmış bir sıra yeni sazişlər çoxşaxəli tərəfdaşlığa əlavə impuls verəcək.

Qazaxıstan və Azərbaycan ticari-iqtisadi sahədə qarşılıqlı faydalı əməkdaşlıq edir. Ötən ilin yekunlarına əsasən, ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi yarım milyard dollara yaxınlaşıb. Lakin, əlbəttə ki, ticari-iqtisadi tərəfdaşlığın potensialı əsla tükənməyib. Bu baxımdan Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutunun, belə adlandırılan "Orta dəhliz"in potensialının tam üzə çıxarılması böyük əhəmiyyət kəsb edir. Söhbət logistika xidmətlərinin təkmilləşdirilməsindən, vahid nəqliyyat operatorlarının yaradılmasından, texniki və tarif şərtlərinin modernləşdirilməsindən, inzibati maneələrin aradan qaldırılmasından və qapalı logistik dövrənin formalaşmasından gedir.

2022-2027-ci illərdə "Orta dəhliz"in inkişafına dair yol xəritəsinin səmərəli reallaşdırılması böyük əhəmiyyət kəsb edir. Prezidentlər razılaşıbar ki, bu marşruta artan maraqdan tam yararlanmaq və onun infrastrukturunun inkişafına üçüncü ölkələri cəlb etmək lazımdır. Bütün bu tədbirlər, habelə beynəlxalq tərəfdaşlarla sıx qarşılıqlı əlaqə Şərq-Qərb istiqamətində yüklərin çatdırılmasının sabitliyini və operativliyini təmin etməyə imkan verəcək.

Aparılan danışıqlar zamanı dövlət başçıları Qazaxıstan neftinin Azərbaycandan keçməklə tranzitinin başlanması, "Orta dəhliz"in imkanlarını tam həcmdə səfərbər etmək üçün ölkələrimizin nəqliyyat-logistika infrastrukturlarının birləşdirilməsi üzrə ciddi işin başlanması barədə qərarlar qəbul ediblər. Onu da vurğulayaq ki, TDT-nin 10-cu Zirvə görüşü 2023-cü ilin oktyabr ayında Qazaxıstanda keçiriləcək.

Bütün bunlar həm Azərbaycan, həm də digər dost ölkələr üçün ikiqat əhəmiyyətlidir. Çünki güclənən məhz türk birliyidir. Bu birlik və yüksək əlaqələrdə isə Azərbaycan mərkəzi rol alıb və bu proseslərdə təşəbbüskar şəxsən İlham Əliyevdir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Qərbi Azərbaycan İcmasının Gənclər Birliyinin ilk iclası keçirilib

İcmanın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda icmanın Gənclər Birliyinin sədri, Milli Məclisin deputatı Ramin Məmmədov 2022-ci il dekabrın 24-də Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının binasında Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə səsləndirdiyi fikirlərin böyük tarixi və siyasi əhəmiyyətə malik olduğunu söyləyib. O qeyd edib ki, Qərbi Azərbaycana qayıdış məsələsi bu gün hər bir azərbaycanlının, o cümlədən gənclərin ən ümdə vəzifələrindən biri kimi gündəmdədir. Qayıdış Konsepsiyasının müddəalarında qayıdışın əsas prinsipləri əks olunub, Qərbi Azərbaycana qayıdış məsələsi bu gün Azərbaycan xarici siyasətinin mühüm komponentlərindən birinə çevrilib. O bildirib ki, hər bir gəncin üzərinə düşən əsas vəzifə bu proseslərdə fəallıq göstərmək, həqiqətləri həm də müasir texnoloji imkan və vasitələrdən istifadə edərək çatdırmaqdan ibarətdir.

Sonra çıxış edən İdarə Heyətinin sədri Əziz Ələkbərli Qərbi Azərbaycan İcmasının təşkilati strukturu, fəaliyyəti və qarşıda duran vəzifələr haqqında qısa məlumat verib. İcma sədri Qərbi Azərbaycana Qayıdış Konsepsiyası və bununla bağlı qəbul olunan tədbirlər planı üzrə görüləcək həlli vacib işlərə toxunub, Qərbi Azərbaycana qayıdış məsələləri, beynəlxalq müstəvidə görülməli olan işlər haqda məlumat verərək bu məsələdə gənclərin rolundan danışıb.

Qərbi Azərbaycan İcmasının Gənclər Birliyinin sədr müavini, Milli Məclisin deputatı Kamal Cəfərov vurğulayıb ki, gənclər təmsil olunduqları müxtəlif qurum və platformalarda vahid mövqedən çıxış etməli, Qərbi Azərbaycana qayıdışla bağlı aparılan işlərin bir parçasına çevrilməli və hər bir gənc bu işə öz töhfəsini verməyə çalışmalıdır.

Deputat Səbinə Xasayeva çıxışında tarixi faktlara söykənməklə zamanın reallıqlarını doğru dəyərləndirərək mübarizə aparmağı hər bir gənc üçün vacib hesab etdiyini bildirib. Diqqətə çatdırılıb ki, bu gün hər bir gənc özünü Qərbi azərbaycanlı hesab etməli, bilik və potensialını istifadə edərək doğma torpaqlarımıza qayıdışa töhfələr verməlidir.

Deputat Emin Hacıyev isə çıxışında Ermənistanda keçirilən idman yarışında Azərbaycan Bayrağının yandırılmasını pisləyib, müqayisə olaraq Azərbaycanda keçirilən yarışlarda erməni idmançıların çıxışları üçün tam rahat və təhlükəsiz şəraitin yaradılmasına diqqət çəkib.

Politoloq Zaur Məmmədov da Qərbi Azərbaycana qayıdışla bağlı fikirlərini bölüşüb, torpaqlarımıza qayıtmağın vacibliyindən danışıb.

Görüşdə Odlar Yurdu Universitetinin prorektoru Qabil Qafarov, Azərbaycan Texniki Universitetinin III kurs tələbəsi Əli Məhərrəmli, Dövlət Vergi Xidmətinin əməkdaşı, İqtisad Universitetinin doktorantı Aygün Məmmədova, Memarlıq və İnşaat Universitetinin Tələbə Həmkarlar Təşkilatının sədri, texnika üzrə fəlsəfə doktoru Bayram Məmmədov, Azərbaycan Texniki Universitetinin III kurs tələbəsi Namiq Muradov çıxış ediblər.

Çıxışlardan sonra Gənclər Birliyinin sədri Ramin Məmmədov növbəti görüşlərin konkret olaraq xüsusi mövzulara həsr olunacağını deyib.

# Qərbi Azərbaycan İcmasının bəyanatı

**Qərbi Azərbaycan İcması Ermənistanda Azərbaycan Bayrağının yandırılması ilə bağlı bəyanat yayıb.**

AZƏRTAC-a daxil olan bəyanatda deyilir:

"Ermənistanda Azərbaycan əsgərinə işgəncə verilməsi görüntülərinin yayılmasından cəmi bir gün sonra, bu ölkədə Azərbaycana qarşı növbəti nifrət aktı törədilmişdir. Ermənistanın paytaxtı İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatının televiziya ilə beynəlxalq aləmə canlı yayımlanan açılış mərasimində Ermənistan İctimai Televiziyasının əməkdaşı, bu ölkədə tanınmış dizayner və sözügedən çempionatın təşkilatçılığında yer alan bir şəxs Azərbaycanın Bayrağını nümayişkaranə şəkildə yandırmışdır.

Ermənistanın qanunvericiliyində xarici ölkənin dövlət simvollarına qarşı hörmətsizliyin cinayət sayılmasına baxmayaraq, polis beynəlxalq ictimaiyyətin gözü qarşısında cinayət törətmiş bu şəxsi elə həmin gün azad etmişdir. Ən ağrılısı odur ki, Azərbaycan Bayrağının səhnədə yandırılması tamaşaçıların alqışları ilə müşayiət olunmuş, polis tərəfindən azad edilən həmin şəxs bu ölkənin parlament üzvləri daxil olmaqla, çoxsaylı kütlə tərəfindən qəhrəman kimi qarşılanmışdır.

Bütün bunlar Ermənistanda Azərbaycana qarşı dövlət tərəfindən dəstəklənən və sistemli şəkildə aparılan etnik nifrət siyasətinin və Azərbaycanofobiyanın göstəriciləridir. Ermənistanda belə ictimai nifrət aktlarını təşkil edənlər xalqlar arasında nifaqı daha da dərinləşdirməyi və qorxu mühiti yaradaraq azərbaycanlıları oraya qayıtmaqdan çəkindirməyi hədəfləyirlər.

Ermənistanın törətmiş olduğu insanlıq əleyhinə cinayətlərə və müharibə cinayətlərinə beynəlxalq aləmin lazımınca reaksiya göstərməməsi bu ölkədə irqi ayrı-seçkilik siyasətinin və cəmiyyətdə ksenofobiya meyillərinin daha da güclənməsinə şərait yaradır. Buna görə də biz beynəlxalq ictimaiyyəti Ermənistanın törətdiyi etnik təmizləmə, irqi ayrı-seçkilik kimi insanlıq əleyhinə cinayətlərinə adekvat qiymət verməyə çağırırıq. İcma Azərbaycan Bayrağına qarşı törədilmiş cinayəti kəskin şəkildə qınayır və Ermənistan hökumətindən azərbaycanlılara qarşı nifrət və ayrı-seçkiliyi aşılayan siyasət və praktikasını dərhal dayandırmağı, azərbaycanlılara qarşı cinayət törətmiş şəxsləri ədalət məhkəməsinə təslim etməyi və onları şöhrətləndirməyə dərhal son verməyi tələb edir.

Bütün bunlar Ermənistana qayıtmağımız üçün müvafiq verifikasiya, hüquqi və təhlükəsizlik zəmanət mexanizmini ehtiva edən razılaşmaların zəruriliyini bir daha vurğulayır".

# YAP ilə AK Parti arasında əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub

## Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti ilə Türkiyənin Ədalət və İnkişaf Partiyasının İstanbul vilayət təşkilatında görüş keçirilib






**Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir.**




AZƏRTAC-ın Türkiyəyə ezam olunmuş xüsusi müxbiri xəbər verir ki, YAP İdarə Heyətinin üzvləri, deputatlar Hikmət Məmmədov, Pərvin Kərimzadə, Azərbaycan-Türkiyə dostluq qrupunun üzvü Ramil Həsən və YAP Nərimanov rayon təşkilatının sədri Samir Vəliyevdən ibarət nümayəndə heyəti ilə aprelin 15-də Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) İstanbul vilayət təşkilatında görüş keçirilib.

Görüşdən əvvəl Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və AK Parti Sədrinin birinci müavini, İstanbul millət vəkili Numan Kurtulmuş mətbuat konfransında jurnalistlərin suallarını cavablandırıblar.

Numan Kurtulmuş bildirib ki, Azərbaycan-Türkiyə münasibətləri "Bir millət, iki dövlət" təfəkkürü ilə sürətlə inkişaf edir. Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın yaxın dostluq və qardaşlıq münasibətləri, dövlət qurumlarımızın da işbirliyi ilə iki qardaş ölkə arasında münasibətlər sürətlə inkişaf edərək hazırda müttəfiqlik səviyyəsinə yüksəlib.

Azərbaycan-Türkiyə əlaqələrinin bütün mərhələlərdə daha da möhkəmləndiyini vurğulayan AK Parti Sədrinin birinci müavini diqqətə çatdırıb ki, təkcə dövlətlərimiz arasında əlaqələr deyil, qardaş xalqlarımızın münasibətləri də gündən-günə inkişaf edir.

İşğal altındakı torpaqlarının azad edilməsi uğrunda 44 günlük qəhrəmanlıq dastanının yazıldığı Vətən müharibəsində də Türkiyənin Azərbaycanın yanında olduğunu bildirən Numan Kurtulmuş deyib ki, Türkiyənin beynəlxalq aləmdə nüfuzu, milli müdafiə sənayesi onun bütün imkanları ilə Azərbaycanın yanında olmasına şərait yaratdı. Nəticədə beynəlxalq təşkilatların, o cümlədən Minsk qrupunun 30 il ərzində bu istiqamətdə heç bir addım atmadığı problem Türkiyənin köməyi və Azərbaycanın mübarizəsi ilə həllini tapdı.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Türkiyədə baş vermiş zəlzələ zamanı həyatını itirənlərlə bağlı başsağlığı verərək yaralıların tezliklə şəfa tapmasını arzulayıb.

Tahir Budaqov bildirib ki, dərin köklərə malik Azərbaycan-Türkiyə münasibətləri bir çox sınaqlardan çıxıb. Əlaqələrimiz 44 günlük Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycana göstərdiyi yüksək siyasi, mənəvi dəstəyindən sonra keyfiyyətcə yeni müstəviyə qədəm qoyub. Azərbaycan xalqı bu dəstəyi, qardaşlığı, dostluğu heç zaman unutmayacaq.

YAP-ın Azərbaycan qarşısında duran yeni vəzifələrin həyata keçirilməsi, məqsədlərə nail olunması üçün genişmiqyaslı fəaliyyət həyata keçirdiyini vurğulayan Tahir Budaqov deyib: "İyunun 2-də Türkiyəyə səfərimiz zamanı Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) ilə Yeni Azərbaycan Partiyası arasında imzalanmış əməkdaşlıq Sazişini xüsusi qeyd etmək istəyirəm. Həmin saziş imzalandıqdan sonra AK Parti ilə Yeni Azərbaycan Partiyası bir çox layihələri həyata keçirib, uğurlu əməkdaşlıq edib. Bu qısa zaman kəsiyində hətta beynəlxalq səviyyəli tədbirləri də birlikdə reallaşdırmışıq".

Türkiyə-Azərbaycan dostluğunun və qardaşlığının regionda yeni reallıqlar yaratdığını söyləyən Tahir Budaqov postmünaqişə dövründə Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə həyata keçirdiyi bərpa-quruculuq işlərində Türkiyənin ölkəmizə verdiyi dəstəyi xüsusi vurğulayıb. Qeyd edib ki, Türkiyədə zəlzələ nəticəsində zərərçəkmiş bütün bölgələrdə aparılacaq quruculuq işlərində də ölkələrimiz birlikdə olacaq, bu işləri birgə həyata keçirəcək.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini vurğulayıb ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi dostluq əlaqələri bütün bölgədə sabitlik və inkişaf üçün möhkəm əsaslar yaradıb. Bu proses artıq bütün dünyanın diqqətini cəlb edib, beynəlxalq güclərin maraq dairəsinə düşüb. Son illərdə Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın siyasi iradəsi və liderliyi ilə həyata keçirilən tədbirlər nəticəsində türk dövlətlərinin daha da yaxınlaşmasının, vahid bir təşkilat olaraq fəaliyyət göstərməsinin şahidi oluruq. Yaranmış tarixi fürsəti düzgün qiymətləndirməli və bu imkandan türk dövlətlərinin hamısının faydalanmaq şansını əldən verməməliyik.

Sonra xatirə şəkli çəkdirilib.

# Professor Əjdər İsmayılovun anadan olmasının 85-ci ildönümünə həsr olunan konfrans keçirilib



**Aprelin 15-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının təşkilatçılığı ilə "91-lər"dən olan, filologiya elmləri doktoru, tarixçi alim, professor Əjdər İsmayılovun anadan olmasının 85-ci ildönümünə həsr olunan konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə Əjdər İsmayılovun həyat və fəaliyyəti haqqında danışaraq onun şərəfli ömür yolu keçdiyini bildirib. Əjdər İsmayılovun görkəmli elm xadimi, nüfuzlu ziyalı olduğunu deyən A. Rəhimzadə diqqətə çatdırıb ki, o, həyatının sonuna qədər Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq qalıb, əsl vətəndaşlıq mövqeyi nümayiş etdirib.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov çıxışında Əjdər İsmayılovun Azərbaycan elmində böyük iz qoyduğunu deyib. Bildirib ki, həm filologiya, həm də tarix sahəsində mərhum professorun mühüm elmi əsərləri və araşdırmaları var. S.Qurbanov Əjdər İsmayılovun həyat və fəaliyyətini sədaqət və cəsarət nümunəsi kimi səciyyələndirib.

YAP Veteranlar Şurasının üzvü, Əməkdar elm xadimi Şahlar Əsgərov isə Əjdər İsmayılovu möhkəm əqidəli və prinsipial şəxs kimi dəyərləndirib. O deyib: "Məhz bu mövqeyinin nəticəsidir ki, o, "91-lər"in müraciətinə imza atıb. Çünki o zaman Heydər Əliyevi müdafiə edənlər o vaxt ki hakimiyyət tərəfindən təzyiqlərə, təhdidlərə məruz qalırdılar. Amma Əjdər İsmayılov heç vaxt öz prinsipial mövqeyindən dönmədi".

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun baş direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədli çıxışında professor Əjdər İsmayılovun Azərbaycan elmi qarşısında xidmətlərindən, Hüseyn Cavid yaradıcılığı ilə bağlı araşdırmalarından, ermənilərin tarixi saxtalaşdırmaq cəhdləri ilə mübarizəsindən ətraflı bəhs edib. Vurğulayıb ki, Əjdər İsmayılov həm də böyük türkçü alim idi.

Konfransda daha sonra YAP Veteranlar Şurasının üzvü Tahir Məmmədov, YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, AMEA-nın Qafqazşünaslıq İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri, professor Qasım Hacıyev, YAP Veteranlar Şurasının üzvü, akademik Sudeyf İmamverdiyev, YAP Veteranlar Şurasının üzvü, professor Ədalət Fərəcov və digərləri çıxış edərək mərhum professor Əjdər İsmayılovun cəsarətli, qətiyyətli mövqeyindən, Ulu Öndər Heydər Əliyev yoluna sadiqliyindən ətraflı bəhs ediblər. Mərhum professorun elmi yaradıcılığından danışan natiqlər vurğulayıblar ki, Əjdər İsmayılov "Qədim Ön Asiya və Ön Qafqaz türk tayfaları", "Moisey Xorenatsi anonim keşiş müəllifdir", "Mesrop Maştos əlifba ixtiraçısı deyil, fırıldaqçı anonim keşişdir", "Naxçıvan toponiminin etnotarixi əfsanələr qədər qədimdir" tarixi əsərlər və bir sıra elmi məqalələr yazaraq bizə miras qoyub.

Sonda çıxış edən professor Əjdər İsmayılovun oğlu, iqtisadçı alim Cavid İsmayıl atası haqqında xatirələrini bölüşüb, onun Ulu Öndər Heydər Əliyev ideyalarına sadiqliyi, dövlətçiliyə xidmətləri ilə qürur duyduğunu vurğulayıb.

# YAP nümayəndə heyəti Ərzurumda bir sıra yerləri ziyarət edib










Türkiyədə səfərdə olan Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyətinin üzvləri aprelin 15-də Ədalət və İnkişaf Partiyası (AK Parti) Ərzurum şəhər təşkilatını ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə AK Partinin Ərzurum şəhər təşkilatının sədri Av. İbrahim Küçükoğlu və YAP Azərbaycan nümayəndə heyətinin üzvləri arasında görüş olub. Görüşdən sonra keçirilən mətbuat konfransında çıxış edən Av. İbrahim Küçükoğlu Türkiyədə keçiriləcək seçkilərdən danışıb, iki dövlət arasındakı qardaşlıq münasibətlərindən şad olduğunu bildirib, əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Yeni Azərbaycan Partiyasının (YAP) idarə heyətinin üzvü, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili deyib ki, YAP ilə AK Parti arasında əlaqələr gündən-günə inkişaf edir.

"Türkiyə son 20 il ərzində böyük inkişaf yolu keçib. Bu da bütün Türk dünyasını dirçəldib. Biz Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə böyük tarixi Zəfər qazandıq. Bu qələbədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın da rəhbərliyi ilə Türkiyənin dəstəyini gördük. Azərbaycan xalqı da hər zaman Türkiyənin yanındadır. İnanırıq ki, qarşıdakı seçkilərdən sonra Türkiyə daha da güclənəcək", - deyə o vurğulayıb.

Milli Məclisin deputatı qeyd edib ki, Rusiya-Ukrayna müharibəsi nəticəsində Avropada enerji böhranı məhz Azərbaycanın və Türkiyənin apardığı uğurlu siyasətə görə dərinləşmədi.

SOCAR-ın Türkiyədə yatırımlarının 19 milyard dolları ötdüyünü deyən komitə sədri vurğulayıb ki, Azərbaycan Ərzurumdan idxalı 30 faiz artırıb. Həmçinin Bakı-Tbilisi-Qars dəmiryolu vasitəsilə sərnişin daşınması da planlaşdırılır.

YAP İdarə Heyətinin üzvü, deputat Elşad Mirbəşiroğlu çıxışında deyib ki, son 15-20 ildə Türkiyənin iqtisadiyyatı çox güclənib.

"Hazırda bütün dünyada Türkiyədəki seçkilər müzakirə olunur. Bu da Rəcəb Tayyib Ərdoğanın Türkiyəni gücləndirməsi nəticəsində baş verib. Əslində R.T.Ərdoğan qazansa, dünya üçün də yaxşı olar. Tam müstəqil siyasət aparan Türkiyə nadir ölkələrdəndir ki, dünyanın müxtəlif bölgələrində ən təsirli aktorlardan birinə çevrilib", - deyən E.Mirbəşiroğlu vurğulayıb ki, Azərbaycan və Türkiyə prezidentləri bütün beynəlxalq təşkilatlarda hər zaman iki dövlətin maraqlarını müdafiə ediblər. Həmçinin Rəcəb Tayyib Ərdoğan Balkan regionunda, Yaxın Şərqdə və ümumiyyətlə, dünyanın bütün yerlərində Türkiyənin nüfuzunu yüksəldib. Hətta qeyd edə bilərik ki, dünyada ən çox yardım edən 5 dövlətdən biri Türkiyədir.

Milli Məclisin deputatı Kamilə Əliyeva qeyd edib: "Ərzurumda gəzinti zamanı insanların Rəcəb Tayyib Ərdoğana, AK Partiyə olan sevgisini gördük. Dünyada baş verən müharibələr fonunda Türkiyə Prezidentinin yanaşması nəticəsində qardaş ölkə müsbət nəticələr əldə edib". K.Əliyeva YAP və AK Parti arasında olan dostluq, qardaşlıq əlaqələrindən də bəhs edib, iki ölkə arasında imzalanan Şuşa Bəyannaməsini xatırladıb.

Deputat Anar Məmmədov isə diqqətə çatdırıb ki, Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə son 20 ildə böyük uğurlar qazanıb. "Bizim qarşımızda böyük hədəflər var. Əsas prioritetlərdən biri Zəngəzur dəhlizinin açılması ilə bağlıdır. Bu, bütün türk dünyasının birləşməsi üçün vacib əhəmiyyətə malikdir", - deyə o qeyd edib.

YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə Türkiyənin texnoloji sahədə əldə etdiyi yeniliklərdən danışıb. O, qardaş ölkənin hərbi sahədəki uğurlarına Azərbaycanın da sevindiyini vurğulayıb. Bu sahədəki texnoloji yeniliklərin bundan sonra da dünyanı təəccübləndirəcəyini deyib. V.Rəhimzadə Türkiyə-Azərbaycan birliyi kimi münasibətlərin dünyanın heç bir ölkəsində olmadığını diqqətə çatdırıb.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyasının (YAP) idarə heyətinin üzvü, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin rəhbərlik etdiyi nümayəndə heyətinə YAP İdarə Heyətinin üzvü, deputat Elşad Mirbəşiroğlu, deputatlar Kamilə Əliyeva, Anar Məmmədov və YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə daxildir.

* * *

Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti Türkiyənin Ərzurum şəhərində səfərdədirlər.

YAP Azərbaycan nümayəndə heyətinin üzvləri Türkiyə Qızıl Aypara Cəmiyyətinin Ərzurum şöbəsini ziyarət ediblər.

Sonra nümayəndə heyəti Atatürk Universitetinin Rektorluğunda olub.

Universitetin rektoru Ömer Çomaklı qonaqlara "Kurtuluşunun 100 yılında Erzurum ve ermənilər" kitabını və digər hədiyyələri təqdim edib.

Görüş zamanı Türkiyə-Azərbaycan əlaqələri barədə müzakirələr aparılıb.

Ö.Çomaklı Universitetin modeli və iş prinsipi haqqında Azərbaycan nümayəndə heyətinin üzvlərini məlumatlandırıb.

Görüşdən sonra YAP nümayəndə heyətinin üzvləri Universitetin Rektorluğundakı muzeyi və iş otaqlarını gəzib.

* * *

Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyətinin üzvləri Ərzurum şəhərinin qədim bazarlarında ticarətçilərlə görüşüblər.

Görüş əsnasında türk ticarətçilər Azərbaycan və Türkiyənin qardaş dövlətlər olduğunu vurğulayıb, "Bir millət, iki dövlət" tezisini bir daha xatırladıblar.

Tarixi "Daş Mağazalar Caddesi"ni gəzən Azərbaycan nümayəndə heyətinin üzvləri ticarətçilərlə söhbətlərində ölkəmizin hər zaman qardaş Türkiyəyə dəstəyini vurğulayıb, Azərbaycanın və Türkiyənin tarixi qardaşlıq əlaqələrinə malik olduğunu bildiriblər.

Sonra nümayəndə heyətinin üzvləri "Habib Baba Türbe" küçəsində "BakırcılarÇarşısı"nda olublar. Ticarətçilər onları yüksək qonaqpərvərliklə qarşılayıblar.

Azərbaycan nümayəndə heyətinin şəhər gəzintisinin son ünvanı Ərzurum şəhərinin qədim bazarlarının yerləşdiyi küçə olub.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin üzvü, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinə YAP İdarə Heyətinin üzvü, deputat Elşad Mirbəşiroğlu, deputatlar Kamilə Əliyeva, Anar Məmmədov və YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə daxildir.

* * *

Türkiyədə səfərdə olan Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyətinin üzvləri Cümhuriyyət prospektində yerləşən qədim Ərzurum qalasını və Şəhər Arxivini ziyarət ediblər.

Qonaqlara Şəhər Arxivində Ərzurum qalasının maketləri göstərilib, həmçinin qalanın tarixi haqqında məlumat verilib.

Ərzurum Mədəniyyət və İncəsənət Qalereyası ilə tanışlıqdan sonra YAP nümayəndə heyətinin üzvləri Çifte Minareli Medrese və Ulu Caminidə olublar.

Bununla da YAP-ın nümayəndə heyətinin Türkiyənin Ərzurum şəhərinə səfəri yekunlaşıb.



# Heydər Əliyev İli 2023

# Qafqazın lideri

**Sülh üçün çalışmalarına və terrordan əziyyət çəkmələrinə baxmayaraq, xarici ölkələrdəki bəzi şəxslər Azərbaycanı və Gürcüstanı terrorizmdə təqsirləndirirdilər. Belə fikirləri qətiyyətlə rədd edən Heydər Əliyev onların özlərinin terrorla məşğul olduqlarını söyləyirdi. Bildirirdi ki, bu, abxaz münaqişəsi ilə əlaqədar Gürcüstana, ikincisi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycana qarşı həyata keçirilən terrorizmdir.**

Gürcüstan və Azərbaycan prezidentləri dəfələrlə terrorun obyekti olsalar da, terrorçular onları məhv etməyə müvəffəq olmamışdılar. Heydər Əliyev deyirdi ki, Azərbaycan həmişə terrorizmin, separatizmin, ekstremizmin, dini fanatizmin əleyhinə olmuşdur, bu mövqelərdə dayanmışdır və dayanacaqdır. Həmin dairələrə xəbərdarlıq edən Heydər Əliyev Qafqazda sülhü həqiqətən təmin etmək məqsədilə bir neçə il əvvəl Tbilisidə imzalanan bəyannaməni yerinə yetirə bilmədiklərini qeyd edirdi. Onun mövqeyi bundan ibarət idi ki, bütün qonşuların sülh, həmrəylik şəraitində yaşamaları, regionda sabitliyin olması bütün Qafqazın çiçəklənməsinin təməli idi.

Azərbaycanı, Türkiyəni və Gürcüstanı Qafqazın üç böyük və strateji əhəmiyyətə malik olan ölkəsi sayan Heydər Əliyev onların arasında sıx dostluq, qardaşlıq əlaqələrini bütün Qafqazda və onun ətrafında sülhün, əmin-amanlığın, təhlükəsizliyin təmin edilməsindən ötrü vacib amil kimi qiymətləndirirdi. Bu baxımdan 2002-ci il aprelin 30-da Trabzondakı "Zorlu Qrand" mehmanxanasının "Authentinq" salonunda prezidentlər Heydər Əliyev, Əhməd Necdət Sezər və Eduard Şevardnadzenin iştirakı ilə imzalanan "Terrorizmə, mütəşəkkil cinayətkarlığa və digər ağır cinayətlərə qarşı mübarizə haqqında Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Respublikası arasında Saziş"i əhəmiyyətli hesab edirdi. Sənəd üç dövlətin terrorizm əleyhinə mübarizəsində səylərini birləşdirirdi.

### Millətlərarası münasibətlər

Azərbaycan Respublikası dünyanın nadir ölkələrindən biridir ki, qonşuluğundakı bəzi digər dövlətlərin müasir coğrafi-siyasi sərhədləri daxilində olan tarixi torpaqları ilə həmsərhəddir. Həmin ərazilərdə azərbaycanlılar özlərinin etnomədəni torpaqlarında yaşayırlar. Ona görə də Heydər Əliyevin fəaliyyətində başlıca yerlərdən birini Qafqazdakı digər ölkələrin vətəndaşları olan azərbaycanlıların hüquq və azadlıqlarının qorunması məsələsi tuturdu. Belə ölkələrdən biri olan Gürcüstanda çoxlu azərbaycanlı yaşayırdı. Gürcüstan vətəndaşı olan azərbaycanlıların vəziyyətini bu ölkənin rəhbəri ilə görüşlərində açıq şəkildə gündəliyə gətirən Heydər Əliyev deyirdi ki, azərbaycanlılara kənardan gəlmiş digər qruplarla eyni münasibət bəslənmək olmaz. Yaşadıqları torpaqlar onların tarixi vətəni və yurd yerləridir.

Gürcüstanda yaşayan azərbaycanlılar iki ölkə arasındakı münasibətlərdə körpü rolunu oynayırdılar. Bununla bağlı olaraq Heydər Əliyev deyirdi: *"Mən çox məmnunam ki, Gürcüstanda yaşayan azərbaycanlılar gürcü xalqı ilə Azərbaycan xalqı arasında olan dostluq əlaqələrinin daha da möhkəmlənməsi üçün çalışırlar və bu əlaqələr üçün böyük bir körpüdürlər".*

Azərbaycanlıların nümayəndələrinin Gürcüstan parlamentinə seçilməsini bu ölkədə demokratiyanın inkişafının təzahürü kimi qiymətləndirən Heydər Əliyev ümid edirdi ki, onlar bundan sonra da ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak edəcək, dövlət müstəqilliyinin qorunmasına səy göstərəcək və vahid Gürcüstanın möhkəmlənməsində dəyər qazanacaqlar.

Müstəqil Gürcüstanda azərbaycanlıların azad və sərbəst yaşamaları bu ölkəyə şan-şöhrət gətirirdi. Azərbaycanlıların problemlərindən biri ana dillərində təhsil və məktəblərin vəziyyəti ilə bağlı idi. Bunu ciddi məsələ hesab edən Heydər Əliyevin fikrincə, azərbaycanlılar harada, hansı ölkədə yaşamalarından asılı olmayaraq, öz dilini, dinini, milli ənənələrini heç vaxt unutmamalı idi.

Azərbaycanda yaranma tarixi çar Rusiyasının XIX əsrdə Qafqazı işğal etməsindən sonra başlayan rus icması da mövcuddur. Bu icma ilə mehriban münasibətləri vacib hesab edən Heydər Əliyev onların nümayəndələrinin 1998-ci il dekabrın 17-də keçirilən qurultayının iştirakçılarına göndərdiyi təbrik məktubunda deyirdi: *"Azərbaycan hələ qədimdən bununla məşhurdur ki, müxtəlif millətlərə və dinlərə mənsub olan insanlar bu torpaqda özlərinə ikinci vətən tapmışlar. Tarixi taleyin hökmü ilə Şimali Azərbaycan təxminən iki əsr siyasi, iqtisadi və mənəvi cəhətdən Rusiya ilə bağlı olmuşdur. Rusiyada Azərbaycan icmasının və Azərbaycanda rus icmasının formalaşması məhz həmin dövrdə baş vermişdir".*

Heydər Əliyev Dağıstan xalqları ilə də mehriban münasibətlərin qurulmasını və davam etdirilməsini zəruri sayırdı. Tarixi, coğrafi, dini, etnik amillərin birləşdirdiyi Azərbaycan və Dağıstan xalqları arasında qədimdən gələn dostluq münasibətlərinin qorunub saxlanılmasına və inkişafına xüsusi diqqət verən Heydər Əliyev dostluq cəmiyyətlərinin rolunu əhəmiyyətli hesab edirdi.

### Dinlərarası dialoq

Qafqazda bütün sahələrdə münasibətlərin inkişaf etdirilməsindən ötrü dinlərarası dialoq vacib amillərdən biri olduğundan Heydər Əliyev müxtəlif dinlər arasında dialoqun düzgün qurulmasını zəruri sayırdı. Əhalisinin mütləq əksəriyyətinin müsəlman olmasına baxmayaraq, Azərbaycanda bütün dinlər və dindarlar üçün normal şərait yaradılmışdı. Müsəlmanlarla bərabər, xristianlar, iudaistlər özlərini çox rahat hiss edirdilər. Məscidlərlə yanaşı, kilsə, sinaqoq və katolik kilsəsi də fəaliyyət göstərirdi. Onların rəhbərləri dövlət toplantılarına dəvət olunurdular. Din xadimləri müxtəlif problemlərin həllinə dair birgə çağırışlar edirdilər. Azərbaycanın bu nümunəsi digər dövlətlər üçün də örnək idi. Heydər Əliyev bütün Qafqazda məhz belə bir mühitin yaradılmasını istəyirdi. Qafqazı burada yaşayan bütün xalqların evi kimi qiymətləndirən, coğrafi-siyasi mövqeyi baxımından dünyanın nadir guşəsi hesab edən, dünya tarixinə böyük mədəni töhfələr verdiyini yüksək dəyərləndirən, yeni şəraitdə regiondakı mövcud problemləri, onların səbəblərini sülh və əmin-amanlığı istəməyən qüvvələrin fəaliyyətində görən Heydər Əliyev bu vəziyyətdən çıxmağın yolunu münaqişələrə son qoyulmasında, mədəniyyətlərarası, dinlərarası dialoqda və əməkdaşlıqda görürdü.

SSRİ ateist dövlət olduğundan bütün dinlər arxa planda olsa da, ölkədə daha çox islam dininə, müsəlmanlara ögey münasibət göstərilirdi və dinlərin əməkdaşlığı demək olar ki, unudulmuşdu. Sovet dövründə dinlərə belə münasibətin məqsədli və ya məqsədsiz şəkildə edildiyini deyən Heydər Əliyevin fikrincə, ahəngdar sistemin pozulması ölkədə ağır nəticələrə gətirib çıxarmışdı.

SSRİ dağıldıqdan sonra Qafqazda yaranmış yeni geosiyasi şəraitdə dinlərarası münasibətlərin tənzimlənməsini zəruri hesab edən Heydər Əliyev deyirdi ki, burada müxtəlif millətlərin nümayəndələri, müxtəlif dinlərə etiqad bəsləyən adamlar yaşayırlar, onların çoxu müsəlman dininə mənsubdur.

Sülh, əmin-amanlıq, birgəyaşayış dini olan islamı terrorla əlaqələndirməyin əleyhinə çıxan Heydər Əliyev belə yanlış yanaşmaların ziyanlı olduğu qənaətində idi. Heydər Əliyev hesab edirdi ki, islam dini hər bir xalqın, ümumiyyətlə, bütün dünyada, eləcə də Qafqazda müsəlmanların sıx birləşməsində böyük rol oynayır. Bu regionda müsəlmanlar əhalinin əksəriyyətini təşkil edirdilər və ona görə də ruhanilərin, din xadimlərinin fəaliyyəti xalqlar və ölkələr üçün əhəmiyyətli idi.

Azərbaycan və Rusiya Federasiyasının tərkibində olan Dərbənd bir-birindən ayrılmaz anlayışlardır. Bu da təbii idi. Çünki Azərbaycanda Dağıstanın müxtəlif millətlərinə mənsub insanlar, Dağıstanda isə çoxlu azərbaycanlı etnomədəni ərazilərdə yaşadığından xalqlar bir-birinə qaynayıb-qarışmışlar. Azərbaycanda azərbaycanlı, ləzgi, avar, qumuq və lakı bir-birindən ayırmaq çətindir. Bütün bunların əsasını həm dini mənsubiyyət, həm də mənəvi və tarixi köklər təşkil edir. Heydər Əliyev 2000-ci il iyunun 17-də Dağıstan nümayəndə heyəti ilə görüşdə deyirdi ki, müsəlmanların Qafqaz birliyi çərçivəsində, o cümlədən Dağıstanın və Azərbaycanın din xadimləri arasında əməkdaşlıq ölkələr, xalqlar arasında dostluğun, bir çox yüzilliklər ərzində təşəkkül tapmış əlaqələrin daha da möhkəmlənməsi, ölkələrin inkişaf etməsi, keçid dövrünü asanlıqla adlaya bilməsi, eyni zamanda Dağıstanda, Azərbaycanda, bütün Qafqazda sülh, əmin-amanlıq, firavanlıq olması üçün çox böyük əhəmiyyətə malikdir. Onun fikrincə, Qafqazda dinlərarası münasibətlərin düzgün qurulması sülhə, əməkdaşlığa və ümumi rifaha gətirəcəkdi.

### Qafqazın gələcəyinə baxış

Cənubi Qafqazın gələcəyini münaqişələrə son qoyulmasında, dövlətlərin mehriban qonşuluğunda, qarşılıqlı faydalı əməkdaşlığında və demokratik inkişafında görən Heydər Əliyev belə hesab edirdi ki, SSRİ dağıldıqdan sonra regionda dağıdıcı proseslər getmiş, anarxiya və xaos başlıca istiqamətə çevrilmiş, insanın ali hüququ olan yaşamaq hüququ pozulmuşdu. Azərbaycana qarşı Ermənistanın əsassız ərazi iddialarının və hərbi təcavüzünün gedişində azərbaycanlılar tarixi torpaqlarından vəhşicəsinə qovulmuş, ev-eşiklərini itirmiş, qaçqın olaraq küçələrdə, çöllərin düzündə qalmışdılar. Qarabağın yuxarı hissəsindən də azərbaycanlılar qovularaq məcburi köçkünə çevrilmişdilər.

Demokratiyanın bərqərar edilməsindən ötrü cəmiyyətin psixoloji və ictimai şüur səviyyəsi baxımından hazır olmasını Heydər Əliyev vacib hesab edirdi. Totalitar, təkpartiyalı sistemdən ayrılan xalqlarda bu, çətin olduğundan ağrılı və zaman aparan bir proses olsa da, başlıca məsələ yürüdülən siyasətin düzgünlüyü idi.

Dövlət hakimiyyətinin zəif olduğu, qanunların işləmədiyi bir şəraitdə demokratiyadan danışmaq mümkün deyildi. Heydər Əliyevin baxışlarına görə, demokratiya başqalarının hüquqlarını nəzərə almadan istədiyini edə bilmək və sərhədsiz bir həyat yaşamaq deyildi. Demokratik cəmiyyətlərdə hüquqlar qanunlarla qorunur. Qanunların pozulduğu və anarxiyanın tüğyan etdiyi cəmiyyətlərdə demokratiyanı bərqərar etmək mümkün deyildir. Zəif dövlət hakimiyyəti qanunların aliliyini qoruya, demokratiyanı və insan hüquqlarını etibarlı təmin edə bilməz. Ona görə də Heydər Əliyev güclü dövlət hakimiyyətinin qurulmasını zəruri sayırdı. Demokratiyaya inqilabi, sıçrayış yolu ilə keçməyi məqbul hesab etməyən Heydər Əliyev güclü dövlət hakimiyyətinin demokratik təsisatların fəaliyyətini təmin edəcəyinə inanırdı. Demokratiya tarixi göstərir ki, ölkələr və xalqlar heç bir zaman birdən-birə demokratiyaya keçməmişlər. Demokratik yol uzun, təkamül və tədrici bir prosesdir. Heydər Əliyev demokratiyaya keçidə mane olan amillərin - əsassız ərazi iddialarının, işğalların, münaqişələrin, qatı millətçiliyin aradan qaldırılmasını zəruri hesab edirdi. Çünki düşmənçilik və münaqişə şəraitində heç bir xalq inkişaf edə bilməzdi. Heydər Əliyev bu baxışlarını beynəlxalq toplantılarda və ikitərəfli görüşlərində birmənalı olaraq diqqətə çatdırırdı.

Qafqazın gələcəyinin necə olması barədə düşüncələrini Heydər Əliyev belə ifadə edirdi: *"Mən istəyirəm ki, Qafqazda sülh olsun, Qafqazda sabitlik olsun, axı Qafqazda müxtəlif millətlərin nümayəndələri, müxtəlif dinlərə etiqad bəsləyən adamlar yaşayırlar, onların çoxu müsəlman dininə mənsubdur... Odur ki, bizim borcumuz, bizim hər birimizin borcu, - mən öz borcumdan danışıram, - bu məsələlərə maksimum diqqətlə yanaşmaqdan, bütün dinlərə, bütün əqidələrə, milliyyətindən asılı olmayaraq, bütün adamlara hörmət etməkdən ibarətdir. Təkrar edirəm, bununla əlaqədar Qafqaz xalqlarını sıx birləşdirməyə və Qafqazı dinc bir regiona çevirməyə imkan var".*

Heydər Əliyevin fikrincə, Qafqazda sülh və əmin-amanlığın olması bütün Rusiya Federasiyasında sabitlik və sülh üçün əhəmiyyətli idi. Sülhün qurulmasını təkcə Azərbaycan və Gürcüstan deyil, Qafqazda yaşayan və Qafqazla əlaqəsi olan bütün ölkələr, xalqlar, dünya üçün zəruri sayırdı.

Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanın Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən yeni şəraitə uyğun olaraq uğurla həyata keçirilməsi və 44 günlük Vətən müharibəsində işğalçı Ermənistan, onun havadarları üzərində qazanılan parlaq qələbə nəticəsində regionda formalaşmış yeni reallıqları həzm edə bilməyən, sülh və əməkdaşlıq üçün açılmış imkanlara, böyük perspektivlərə mane olmağa, Ermənistanı qızışdırıb ortaya salmağa, regionu yenidən qarışdırmağa çalışan dövlətlərin iyrənc siyasətləri bəri başdan iflasa məhkumdur. Çünki hökmü Azərbaycan dövləti özü verir...

*Musa QASIMLI,*
*Milli Məclisin deputatı,*
*AMEA-nın müxbir üzvü,*
*professor*



# Ulu Öndər ziyalılarda mədəni-siyasi və mənəvi keyfiyyətlərin yüksək olmasına xüsusi dəyər verirdi

**100 illik yubileyi böyük qürur duyğusu ilə qeyd edilən xalqımızın Ümummilli Lideri Heydər Əliyevin özünün və ideyalarının gənclik illərindən pərəstişkarı olmuşam. 50 ildən artıq Azərbaycan Tibb Universitetində çalışan pedaqoq-alim kimi Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti və ölkəmizin iqtisadi qüdrətinin artması, ən başlıcası, xalqımızın həyat səviyyəsinin yaxşılaşması, gənclərin sağlam və təhsilli olması üçün gördüyü işlərlə yaxından tanış olduqca bu böyük şəxsiyyətin həm siyasi, həm də mənəvi keyfiyyətinə heyran qalmışam. Bəlkə də bu, mənə atamdan, ailə tərbiyəmdən gəlmədir. Çünki atam Əməkdar müəllim idi, Şəmkirdə Lenin adına qəsəbə (indi Çinarlı) beynəlmiləl orta məktəbinin direktoru vəzifəsində çalışırdı. O zaman yenicə hakimiyyətə gəlmiş Heydər Əliyevin çıxış və nitqlərindən ibarət evdə guşə düzəltmişdi. Rəhbərin nitqlərini, rayonlara səfərlərini maraqla izləyirdi və sonda deyirdi: "Qətiyyətli adamdır".**

1969-cu il iyulun 14-də Ulu Öndər Azərbaycan KP MK-nın birinci katibi seçiləndə universiteti yenicə bitirib kafedrada baş laborant vəzifəsində çalışırdım. Yadımdadır, müəyyən dövlət idarələrinə rəhbərlik edənlər tələm-tələsik işlərində qayda-qanun yaratmağa başladılar. Hətta mağaza və bazarlarda da satıcılar malların üzərinə qiymətlər yazıb qoyurdular... Şahidiyəm ki, universitetdə qəbul imtahanlarında baş verən qeyri-obyektivliyə və ədalətsizliyə son qoymaq üçün Ulu Öndər özü şəxsən qəbul imtahanlarında iştirak edib, imtahanların gedişatı ilə maraqlanırdı. Heydər Əliyev neqativ halların qarşısının alınması üçün nəinki ATU-da, respublikanın digər ali təhsil ocaqlarında da imtahanlarda iştirak edirdi. İmtahanlardan öncə ali təhsil ocaqlarının rəhbərləri ilə iclas keçirir, onlara müəyyən iradlarını bildirir və tövsiyələrini verirdi. Ümumiyyətlə, Ulu Öndər siyasi hakimiyyətdə olduğu hər iki dövrdə respublikada yüksəksəviyyəli kadr hazırlığına həmişə xüsusi önəm verirdi. Böyük rəhbər sözlərinin çəkisi və sanbalı olan, kütləni arxasınca aparmağı, auditoriyanı inandırmağı bacaran siyasi xadim idi. Azsaylı xalqların da kifayət qədər yaşadığı Azərbaycanda dinindən, dilindən və irqindən asılı olmayaraq, gənclərin istədiyi peşəyə yiyələnmələrinə, ali təhsil almalarına, xalq və ölkə üçün dəyərli mütəxəssis olmalarına dövlət səviyyəsində qayğı göstərilirdi. Ümumiyyətlə, gənclərə dövlət dəstəyinin əsası Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Rəhbərin təhsil siyasətinin ən böyük nailiyyəti 1969-cu ildən etibarən çoxlu sayda gəncin ali təhsil almaq üçün digər respublikalara göndərilməsi idi. Yadımdadır, 1970-ci ildə Mərkəzi Komitədə başqa respublikalara oxumağa gedən 38 nəfər gənclə görüş keçirilirdi. Heydər Əliyev növbəti ildə onların sayını 150-yə çatdırmağı təklif etdi. Müşahidələrimdən görürdüm ki, bu rəqəm ilbəil artır. Nəticədə bir neçə ildə respublikamızdan kənarda oxumağa göndərilənlərin sayı 1000 nəfəri ötmüşdü. Təhsil alanlar arasında geri qayıtmayanlar da olurdu. Bu gün xaricdəki Azərbaycan diasporunun əsasını məhz onlar təşkil edir. Təhsilini başa vurduqdan sonra vətənə qayıdan tanışlarımla söhbətdən yəqin etmişdim ki, onların gələcək taleyi və işlə təmin olunması Heydər Əliyevin şəxsi nəzarətində idi.

Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa etməsinə baxmayaraq, həmin dövrdə respublikaya xarici təzyiqlər və daxili çəkişmələr, bütün sahələrdə getdikcə dərinləşən böhran, kəskin xarakter alan sosial-iqtisadi tənəzzül nəinki ölkədə dövlətçiliyi itirmək, hətta onu dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qoymuşdu. Ölkənin hər yerində, eyni zamanda sosial sahədə ağır vəziyyət yaranmış, işsizlik və yoxsulluq getdikcə kəskin şəkil almışdı və əhalinin güzəranı gündən-günə ağırlaşmaqda idi.

Belə bir vaxtda, xalqın təkidli tələbi ilə Heydər Əliyevin 1993-cü ilin iyununda Azərbaycanın rəhbərliyinə qayıdışı nəticəsində ölkəmizin müqəddəratı tənəzzüldən tərəqqiyə keçid aldı. Ölkənin üzləşdiyi təhlükə tədricən aradan qaldırıldı, böhranın, xaos və anarxiyanın qarşısı alındı, mənəvi-psixoloji gərginliyə son qoyuldu, ictimai-siyasi sabitlik əldə edildi. Ən başlıcası, 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması iqtisadi inkişafa güclü zəmin yaratmaqla, xalqın rifahının yaxşılaşdırılmasında mühüm irəliləyişlərə imkan verdi.

Ulu Öndər təkcə canlı ünsiyyətdə deyil, bütövlükdə dövlət idarəçiliyində Azərbaycan dilinə dövlətin daxili və xarici siyasətinin tərkib hissəsi kimi baxırdı. Buna görə də 2002-ci il sentyabrın 30-da ölkə rəhbəri kimi "Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu" adlı fərman imzaladı. Ulu Öndər millətin dilinə qayğısını hələ sovetlər dövründə rus şovinizminin baş alıb getdiyi zamanlarda göstərmiş və Azərbaycan Konstitusiyasına ana dilimizin Azərbaycan Respublikasının dövlət dili olması haqqında maddə daxil etmişdi.

Bu, Azərbaycan dilinin müstəqil dövlətçiliyimizin tanıdıcı atributlarından biri olmaqla yanaşı, onun (dövlət dilinin) ünsiyyətin bütün sahələrdə tətbiqini, saflığının qorunmasını, zənginliyinin təmin olunmasını qəti şəkildə qanuniləşdirmişdir.

Heydər Əliyev Azərbaycan dilinin mənşəyi, Azərbaycan türkcəsinin qədimliyi, türklərin eradan əvvəl bu torpaqda məskun olması ilə bağlı mübahisələrdə məsələnin milli müstəvidə həll olunmasında böyük tarixi iş gördü, elmi obyektivliyin saxlanmasının təminatçısı oldu. Ulu Öndərin dövlətçilik siyasətindəki dolğunluq və qlobal müasirlik öz xalqının tarixini yaxşı bilməsi, keçmiş dövlətçilik tariximizin təcrübəsindən yerli-yerində bəhrələnməsi ilə bağlıdır.

Özümü çox məmnun və xoşbəxr hiss edirəm ki, o böyük şəxsiyyətlə dəfələrlə görüşmüşəm, tədbir və görüşlərinə dəvət olunmuşam. 1998-ci ildə prezident seçkiləri ərəfəsində Heydər Əliyevin təbliğatçı-vəkili idim. Seçkilər xalqımızın həmrəyliyi və mütəşəkkilliyi sayəsində böyük uğurla başa çatdı. Buna görə bütün vəkillərini Prezident Aparatına dəvət edərək onlara təşəkkürünü bildirdi. Bu zaman müəllifi olduğum kitabları və Amerikadan gəlmiş tələbə yoldaşım Tariyel Quluyevin Ulu Öndər haqqında yazdığı əsəri ona təqdim etdim. O, kitabları götürüb özündə saxladı və gülərək soruşdu ki, o adam elə bircə nüsxə göndərib? Cavab verdim ki, cənab Prezident, vallah, mənə çatan elə bir nüsxə idi. Heydər Əliyev gülərək dedi: - Yaxşı, inandım.

Prezidentin andiçmə mərasimindən sonra axşam ziyafətinə dəvət edildik. Bu möhtəşəm məclisdə böyük insan tək-tək bütün vəkillərinə yaxınlaşaraq şəxsi minnətdarlığını bildirdi.

2000-ci il yanvarın 18-i idi, zəng gəldi ki, sabah Prezident Aparatına (PA) dəvətliyəm. Təyin olunan vaxtda PA-da oldum. Aparatın işlər müdiri bir neçə dəqiqəlik söhbətdən sonra şkafdan bir büküm bağlama götürüb mənə uzatdı və dedi: - Açın, baxın, bunu sizə cənab Prezident 60 illik yubileyiniz münasibətilə hədiyyə etməyi mənə tapşırıb.

Hədiyyəyə baxanda gördüm ki, qızıl suyuna salınmış gözəl bir stolüstü saatdır. Bu dəyərli hədiyyə bizim evdə həyatımın ən qiymətli yadigarı kimi saxlanılır.

Həyatımın ən gözəl anlarından biri də Ulu Öndərin 2000-ci ildə Azərbaycan Tibb Universitetinə gəlişi zamanı oldu. Heydər Əliyev inşası başa çatmış yeni korpusun açılışında və universitetin 80 illik yubileyində iştirak etdi. Bu tədbirdə Ulu Öndərin fərmanı ilə Azərbaycanın "Əməkdar həkim"i fəxri adı ilə mükafatlandırıldım.

Bir ziyalı, elm adamı və uzun illərin pedaqoqu kimi məni məmnun edən amillərdən biri də ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan Elmlər Akademiyası bağlanmaq təhlükəsi ilə üzləşəndə Ümummilli Lider Heydər Əliyevin görkəmli alimlərimiz və ziyalılarımızla görüşməsi, onlarla fikir mübadiləsi aparması oldu. O böyük insan "Akademiya milli sərvətimizdir" deyib bu elm məbədini məhv olmaqdan qorudu. Elmin inkişafına, bu prosesi həyata keçirən çoxminli ziyalılar ordusuna diqqət və qayğını gücləndirdi. Azərbaycan elminin milli əsaslar üzərində dünyaya inteqrasiyasını başlıca vəzifə kimi aktuallaşdırdı. Ümummilli Lider Heydər Əliyev ictimaiyyət nümayəndələri ilə ilk görüşünü Elmlər Akademiyasında keçirəndə mən də tədbirin iştirakçısı idim. Böyük şəxsiyyət çıxışında ölkə ziyalılarına, intellektual potensiala çox böyük dəyər verdiyini xüsusi vurğulayırdı.

Rəhbərin ana dilimizə, elmə, elm adamlarına diqqət və qayğısının nəticəsidir ki, bu gün Azərbaycan alimlərinin səsi dünyanın nüfuzlu elm mərkəzlərindən gəlir. Bu sırada mənim elmi rəhbərliyim altında müdafiə etmiş həkim-alimlər də var.

Xatırladım ki, respublikamızda mədəniyyətin, incəsənətin inkişafını da Ulu Öndər diqqət mərkəzində saxlayırdı, tarixi abidələrin bərpası və qorunub saxlanılmasına xüsusi önəm verirdi. Hamıya yaxşı məlumdur ki, müasir Azərbaycan ədəbiyyatının nümayəndələri ilə ardıcıl və işgüzar əlaqələr saxlayan Ulu Öndərin təşəbbüsü ilə klassiklərimizin irsinə qayğı göstərilməsi və onların xatirələrinin əbədiləşdirilməsi sahəsində böyük işlər görülmüşdür. Şuşada böyük Azərbaycan şairi Molla Pənah Vaqifin əzəmətli abidəsinin ucaldılması, Bakıda görkəmli dramaturq Cəfər Cabbarlının bütöv qranitdən yonulmuş abidəsinin ərsəyə gəlməsi üçün əlindən gələni etmişdir. Həkim, dövlət xadimi, yazıçı-publisist Nəriman Nərimanovun heykəlinin Bakının ən yüksək nöqtələrindən birində ucaldılması üçün siyasi opponentləri, xalqımızın dilinə qənim kəsilmiş qara qüvvələr ilə çətin və barışmaz mübarizə aparmışdır. Repressiya qurbanı, Uzaq Sibir torpaqlarında uyuyan Hüseyn Cavidin məzarının axtarılıb tapılması və onun cənazəsinin Vətənə gətirilməsində, Bakıda onun heykəlinin, Naxçıvanda isə məqbərəsinin ucaldılmasında əzmkarlıq göstərmişdir. Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli, Nəsimi, Mirzə Ələkbər Sabir, Səməd Vurğun, Bülbül və başqa görkəmli sənətkarların ev və xatirə muzeylərinin yaradıması, yaxud əsaslı şəkildə yenidən qurulması, zənginləşdirilməsi Heydər Əliyevin adı ilə bağlıdır. Repressiya qurbanı olmuş dövlət xadimlərinin, yazıçı və şairlərin adlarına küçə verilmiş, bir neçəsinin büstü yaradılmış, bəzilərinin yaşadığı binanın qarşısında barelyefi qoyulmuşdur.

Ulu Öndər çıxışlarında xüsusi vurğulayırdı: "Demokratiya yüksək mədəniyyət deməkdir. Demokratiya yüksək mənəviyyat deməkdir". Ancaq bəzi insanlar, hətta yaşlı adamlar sosial şəbəkələrdə və ya küçədə, müəyyən bir yığıncaqda bir az da özünü bilən kimi göstərməklə demokratiyanı ağzına nə gəldi danışmaq, azadlığı könlü nə istəyir onu etmək kimi açıqlayır. Həyat təcrübəmdən və çoxillik pedaqoji fəaliyyətimdən görürəm ki, bunu yalnız savadsız və cahil insanlar belə düşünə bilər. Demokratiya klassik və həqiqi mənada cəmiyyətin ağıl və hikmətlə mədəni-sivil qayda-qanunlarla idarə olunmasıdır. Demokratiya deklorativ şüarlar toplusu deyil, yəni demokratik üsul və prinsipləri elan etməklə iş bitmir, burada əsas məsələ onların icrasıdır. Bunun üçün də insanda yüksək əqli-mənəvi dərrakə, millətə, milli dövlətçiliyə sağlam ictimai münasibət olmalıdır. Deməli, əxlaq və mənəviyyat olmayan yerdə gerçək azadlıq və demokratiya qeyri-mümkündür. Odur ki, Ulu Öndər təkidlə demokratiyanı və azadlığı doğru-düzgün başa düşməyi və mənəviyyatdan ayırmamağı tövsiyə edirdi: "Çünki ayrı-ayrı insanlar, yaxud qurumlar, dəstələr demokratiyanın onlara verdiyi bu azadlıqları bəzən özbaşınalıq, qanuna itaətsizlik kimi anlayırlar, yaxud da bu cür anlamaq istəyirlər".

Ümummilli Lider Heydər Əliyev şərəfli ömrünün sonuna kimi gənclərin, ziyalıların, alimlərin, mədəniyyət və incəsənət işçilərinin əməyinə yüksək dəyər verməklə onlarla sıx təmasda olmuş, maddi-sosial vəziyyətlərini yaxşılaşdırmaq üçün əlindən gələni etmişdir.

*Vaqif ŞADLİNSKİ,*
*Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurasının sədr müavini, tibb elmləri doktoru, Əməkdar elm xadimi*

# Ermənistan BMT Baş Assambleyasının Beynəlxalq Konvensiyasını barbarcasına pozub

## Erməni xisləti dəyişmir ki, dəyişmir

### Azərbaycanın humanizm addımlarından dərs götürməyən Hayastan əsl simasını bir daha dünyaya nümayiş etdirdi

*Əvvəli 1-ci səh.*



Hələ o zaman əsir və girovluqdan qurtulan mülki və hərbi şəxslərin başına nə oyunlar gətirildiyini, erməni əsirliyində keçirdikləri günlərdə necə dəhşətlərlə qarşılaşdıqlarını sonradan çoxunun psixoloji və digər xəstəliklərə düçar olmasından, indiyədək o ağrı-acını gözlərindən oxumaq olur.

Vətən müharibəsindəki ağır məğlubiyyətdən sonra da öz çirkin xislətlərindən əl çəkməyən ermənilər müxtəlif təxribatlara əl atır, işğalçılıq və terror siyasətini davam etdirirlər. Son zamanlar baş verən hadisələr isə onların vəhşiliklərinin daha bir nümunəsidir. Naxçıvanın Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən Azərbaycan Ordusunun itkin düşmüş əsgərlərini əsir götürən ermənilərin onlarla qeyri-insani davranışlarını əks etdirən video görüntülər erməni sosial şəbəkələrində və KİV-də yayılıb. Hayların əsirlərlə necə davrandığına dünya şahidlik edib.

#### Erməni vəhşiliyi, Azərbaycanofobiyası, nifrəti

Daim Azərbaycana qarşı əsassız, şər və böhtan xarakterli, yalan məlumatlar yayan Hayastan son hadisələrlə bir daha əsl sifətini göstərdi. Elə bu günlərdə azərbaycanlı həkimlərin Qarabağda yaşayan erməni əsilli vətəndaşlarla necə davranmalarından heç olmasa nümunə götürərdilər. Laçın-Xankəndi yolunda Rusiya sülhməramlılarının müraciəti ilə ermənilərə ilkin tibbi yardım göstərən həkimlərimiz hətta onları Xankəndiyə qədər müşayiət etmişdilər. Budur insanlıq, budur sülhü, əmin-amanlığı dəstəkləmək. Amma Ermənistan tərəfi nə edir. Etnik zəmində zorakılıq əməllərindən, necə deyərlər, erməni xislətindən əl çəkmək bilmir ki bilmir.

Regionda sülhün və təhlükəsizliyin bərqərar olmasını istəməyən, Azərbaycanla sülh danışıqlarını gecikdirən Hayastan bunu rəsmi səviyyədə nümayiş etdirir. Belə ki, Ermənistanın paytaxtı İrəvanda Ağır Atletika üzrə Avropa Çempionatının açılış mərasimində Azərbaycan Bayrağı rəsmi akkreditasiya olunmuş şəxs tərəfindən nümayişkaranə şəkildə yandırılır. Ermənistanın baş nazirinin iştirak etdiyi tədbirdə bu əməl alqışlanır. Bütün bunlar Azərbaycanofobiyanın bariz nümunəsi olmaqla, bu ölkənin niyyətindən, əsl siyasətindən, ölkəmizə qarşı nifrətindən xəbər vermirmi...

Azərbaycan Gənclər və İdman Nazirliyi, həmçinin Milli Olimpiya Komitəmiz birgə bəyanat yayaraq Ermənistanda belə bir nifrət mühitinin hökm sürdüyü, təhlükəsizliyin təmin edilmədiyi bir şəraitdə psixoloji təzyiqlərə görə idmançılarımızın yarışlarda normal şəkildə iştirakının mümkünsüz olduğunu bildirib. Bunlar nəzərə alınaraq, idmançıların vətənə qayıtması barədə qərar qəbul edilib.

Bütün bunlar Ermənistanın beynəlxalq idman yarışlarını keçirmək, idmançıların təhlükəsizliyini təmin etmək iqtidarında olmadığını bir daha nümayiş etdirir.

#### Ermənistanın davranışları dünyanın təhlükəsizliyi üçün ciddi təhdid yaradır

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu qəzetimizə açıqlamasında deyib ki, Ermənistanın regionda sülhün, təhlükəsizliyin, dinc yanaşı yaşamağın tərəfdarı olmadığını növbəti dəfə müşahidə etdik.

Deputatın sözlərinə görə, bu istiqamətdə bütün təşəbbüsləri, addımları hər vasitə ilə kənardan dəstək almaqla da əngəlləməyə çalışırlar. O vurğulayıb ki, Ermənistanda əsgərlərimizə qarşı sərgilənən qeyri-insani davranış, həm də onların özlərini tam cəzasızlıq şəraitində hiss etdiyini göstərir: "1949-cu ildə qəbul olunmuş Cenevrə Konvensiyası, ona edilmiş əlavələr hərbi əsirlərin vəziyyəti ilə bağlı müddəaları aydın ifadə edir. Onlara münasibətdə necə davranış sərgilənməli olduğunu təsbit edir. Ermənistan qoşulduğu bütün beynəlxalq konvensiyaları, normativ hüquqi aktları görməzdən gəlir, onları kobud şəkildə pozur. Təbii ki, buna rəvac verən həm də Ermənistanın özünü tam cəzasızlıq şəraitində hiss etməsini şərtləndirən amillərdir".

Deputat deyib ki, müvafiq beynəlxalq instansiyalar Ermənistanı həyata keçirdiyi cinayətlərə görə nəinki cəzalandırır, ona sanksiyalar tətbiq edir, əksinə, onu bu cinayətlərə daha da həvəsləndirir. Buna misal kimi Avropanın bir sıra platformalarında Azərbaycana qarşı sərgilənən qərəzli mövqeləri qeyd etmək olar. Bir daha aydın müşahidə etdik ki, ermənilər xalq olaraq bəşəri, insani dəyərlərdən çox-çox uzaqdırlar. Onlar sivilizasiyadan çox geri qalıblar.

Ermənistanda əsgərlərimizə qarşı sərgilənən davranışın təkcə Azərbaycana deyil, bəşəriyyətə qarşı sərgilənmiş vəhşilik olduğunu deyən E.Mirbəşiroğlu bildirib ki, dünya ölkələri də ermənilərin bu cür sərbəst şəkildə cinayətlər törətdiyini, terrora, təxribatlara əl atdığını və cəzasız qaldığını görür. Belə olduqda digər coğrafiyalarda da belə cinayətlərə meyil artacaq. Ermənistanın davranışları, bütövlükdə dünyanın təhlükəsizliyi üçün ciddi təhdid yaradır. Hər şeydən öncə dünya ictimaiyyəti bu məsələyə həssaslıqla yanaşmalı, nəhayət, reaksiya verməlidir. "Otuz il ərzində Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxladı, xalqımıza, ekologiyamıza qarşı terror həyata keçirib. Dünya bunu görmədi. Ermənistan bu işğalçılığa, terrorçuluğa yenə də cəhd edir. Amma Azərbaycan öz tarixi və dünya tərəfindən tanınmış sərhədləri, torpaqları üzərində suverenliyini tam təmin etmək istiqamətində dinc addım atmaq istəyəndə dünya çox böyük həvəslə qərəzli mövqe sərgiləyir. Təbii ki, müasir dünyada ikili standartlar artıq bir prinsip kimi dövlətlərin, beynəlxalq təşkilatların davranışında yer alıb. Bunlara baxmayaraq, dünya həm də aydın müşahidə edir ki, Azərbaycanın güclü, qətiyyətli rəhbəri var. Xalqımızın böyük iradəsi, əzmi var və biz milli maraqlarımıza uyğun bütün hədəflərimizə uğurla çatacağıq", - deyə deputat əlavə edib.

Deputatın fikrincə, düşmən dinc yolla sülhə gəlmək istəməsə, Azərbaycan onu hərbi yolla sülhə məcbur edəcək. Necə ki, otuz il ərzində Ermənistana çağırış etdik, öz mövqeyimiz, davranışımızla münaqişəni dinc yolla həll etmək istədiyimizi göstərdik. Amma Ermənistan buna qiymət verməyi bacarmadı. O zaman biz hərbi yolla Ermənistan ordusunu darmadağın edərək torpaqlarımızı işğaldan qurtardıq.

Deputat qeyd edib ki, indiki mərhələdə də müəyyən paralellik elementləri müşahidə olunur. Ermənistan yenə Azərbaycanın çağırışlarına məhəl qoymazsa, açıq məsələləri dinc yolla həll etmək istəməzsə, onda Azərbaycan güc tətbiq etməklə məsələni həll edəcək.

***Əsmər QARDAŞXANOVA,*** 
***"Azərbaycan"***

## Ermənistanda Dövlət Bayrağımızın yandırılması faktı ilə bağlı cinayət işi başlanıb

Aprelin 14-də Ermənistanın paytaxtı İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində milli nifrət və düşmənçiliyin salınmasına yönəlmiş nümayişkaranə hərəkətlərlə Azərbaycan Bayrağı yandırılıb.

Ermənistanda Azərbaycana qarşı etnik zəmində nifrət və düşmənçiliyin təcəssümü olan həmin faktla bağlı Baş Prokurorluğun İstintaq İdarəsində Cinayət Məcəlləsinin 12.2, 283.2.1 (zor tətbiq edilməklə milli nifrət və düşmənçiliyin salınması), 12.2, 283.2.2 (qulluq mövqeyindən istifadə etməklə milli nifrət və düşmənçiliyin salınması) və 12.2, 324-cü (Azərbaycan Respublikasının Dövlət Bayrağı barədə təhqiredici hərəkətlər) maddələri ilə cinayət işi başlanıb.

Azərbaycan Respublikasının Baş Prokurorluğunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, milli nifrət və düşmənçiliyin salınmasına yönəlmiş bu cinayət əməlini törədən Aram Nikolyan və digərlərinin milli və beynəlxalq məhkəmə məsuliyyətinə cəlb edilmələri məqsədilə xarici ölkələrin müvafiq orqanlarına müraciətlərin göndərilməsi və onların cəzalandırılmaları üçün beynəlxalq təşkilatlarla əməkdaşlıq edilməsi təmin olunacaq. İstintaqın gedişatı və nəticəsi barədə ictimaiyyətə ətraflı məlumatın verilməsi təmin ediləcək.

"Azərbaycan Respublikası "İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul olunmuş Beynəlxalq Konvensiyaya və bu qəbildən olan bütün əməllərin cəzalandırılmalı olması ilə bağlı prinsiplərə sadiqliyini bir daha nümayiş etdirir, eləcə də beynəlxalq ictimaiyyəti Ermənistanı kəskin qınamağa, o cümlədən Ermənistan tərəfindən beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq öhdəliklərinə əməl olunmasını təmin etməyə çağırır", - məlumatda qeyd edilib.

## Ermənistan tərəfindən nifrət zəminində törədilən əməllər Azərbaycanofobiya siyasətinin bariz təzahürüdür

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsmanı) Səbinə Əliyeva Ermənistanda keçirilən ağırlıqqaldırma üzrə Avropa çempionatı zamanı Azərbaycan Dövlət Bayrağının yandırılmasına münasibət bildirib. Bu barədə AZƏRTAC-a ombudsman Aparatından məlumat verilib.

Məlumatda deyilir: "Aprelin 14-də Ermənistanın paytaxtı İrəvanda keçirilən ağırlıqqaldırma üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan Bayrağının yandırılmasını qəti şəkildə qınayır və azərbaycanlılara qarşı etnik nifrət zəminində baş verən təxribat kimi qiymətləndirirəm.

Hesab edirəm ki, beynəlxalq səviyyəli idman yarışının təşkilatçısı qismində çıxış edən Ermənistan həmin yarışın keçirilməsi ilə bağlı üzərinə düşən öhdəlikləri lazımi qaydada yerinə yetirməyərək belə bir hadisənin baş verməsinə şərait yaratdığına görə beynəlxalq ictimaiyyət qarşısında cavab verməlidir. Ermənistan tərəfindən nifrət zəminində törədilən bu və digər əməllər azərbaycanofobiya siyasətinin bariz təzahürüdür.



Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) olaraq müvafiq beynəlxalq təşkilatları, xüsusilə də Beynəlxalq Ağırlıqqaldırma Federasiyasını və Beynəlxalq Olimpiya Komitəsini törədilmiş bu vandalizm aktına ciddi reaksiya verməyə, idman yarışları üzrə qəbul edilmiş davranış qaydalarının kobud şəkildə pozulması ilə nəticələnmiş bu əməlin törədilməsinə imkan yaratmış təşkilatçı dövlətə qarşı mövcud beynəlxalq qaydalara müvafiq olaraq qəti tədbirlər görməyə çağırıram".

## İdman sahəsində fəaliyyət göstərən Azərbaycan QHT-ləri beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb

İdman sahəsində fəaliyyət göstərən Azərbaycan QHT-ləri Ermənistanda Dövlət Bayrağımızın yandırılması ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət ünvanlayıb.

AZƏRTAC müraciəti təqdim edir:

"Biz - idman sahəsində fəaliyyət göstərən Azərbaycan qeyri-hökumət təşkilatları olaraq Ermənistanın paytaxtı İrəvan şəhərində ağır atletika üzrə Avropa çempionatının açılış mərasimi zamanı baş vermiş xoşagəlməz hadisəyə beynəlxalq idman ictimaiyyətinin diqqətini cəlb etmək məcburiyyətindəyik. Tədbirin təşkilatçılarından biri Azərbaycan Bayrağını yandırıb.

Biz həyatımızı bərabərlik, inklüzivlik və qarşılıqlı hörmətə xüsusi diqqət yetirməklə idmanın ümumbəşəri dəyərlərinin təşviq olunmasına həsr etmişik. İstənilən idman yarışında qalib gəlmək mühüm məsələdir, lakin vacib olan təkcə bu deyil.

Biz narahatlığımızı və qəzəbimizi ifadə etmək üçün söz tapa bilmirik. Burada söhbət təkcə hər bir xalq üçün ən müqəddəs olan Dövlət Bayrağından deyil, bütövlükdə idmanın fundamental dəyərlərinə hörmətsizlikdən gedir.

Bu həftə İrəvana səfər edən idmançılarımız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini 30 il ərzində işğal altında saxlayan ölkənin paytaxtına getdiklərini yaxşı bilirdilər. Buna baxmayaraq, Azərbaycan Ermənistanda keçiriləcək çempionatda iştirak etmək qərarına gəldi, çünki biz inanırdıq ki, idmanın əsl ruhu ölkələrimiz arasında gərgin münasibətlərin girovuna çevrilməməlidir. Yarış iştirakçılarının təhlükəsizliyinə zəmanət verən təşkilatçıların çoxsaylı bəyanatları da bizi ruhlandırmışdı.

Turnirdə normal şəraitin təmin edilməsinə məsul olan şəxsin bayrağı təhqir edən barbar hərəkəti iyrənclikdən başqa bir şey deyil. Azərbaycanın sülhü bərqərar etməyə çalışdığı bir vaxtda Ermənistanda müəyyən dairələr sülh üçün şans verməməkdə qərarlıdırlar.

Sizi idmanı öz nifrət mesajlarını çatdırmaq üçün alətə çevirmək istəyənlərə qarşı bizimlə həmrəy olmağa çağırırıq".

## Daha bir erməni vandallığı

### Hayastanda keçirilən Avropa çempionatının açılış mərasimində Azərbaycan Bayrağının yandırılması bu ölkənin təxribatçı simasının əyani təzahürüdür

*Əvvəli 1-ci səh.*

Bəyanatda deyilir ki, Ermənistanın baş nazirinin iştirak etdiyi mərasimdə belə bir barbarlıq əməlinin törədilməsi və bunun Ermənistan ictimaiyyəti tərəfindən alqışlanması, həmin əməli törədən şəxsin qəhrəman kimi qələmə verilməsi bu ölkədə etnik nifrətin, rasizmin, ksenofobiyanın, Azərbaycanofobiyanın bariz nümunəsi olmaqla yanaşı, həm də xalqlar arasında sülhü, qarşılıqlı anlaşmanı təbliğ edən idmanın nəcib məqsəd və prinsipləri ilə tam ziddiyyət təşkil edir. İdmanın siyasiləşdirilməsi qətiyyən yolverilməzdir.

Əlbəttə ki, Ermənistanda belə bir nifrət mühitinin hökm sürdüyü, təhlükəsizliyin təmin edilmədiyi bir şəraitdə psixoloji təzyiqlərə görə Azərbaycan idmançılarının yarışlarda normal şəkildə iştirakı mümkünsüzdür. Bütün bunlar nəzərə alınaraq, Azərbaycan idmançılarının vətənə qayıtması barədə qərar qəbul edilib. Ermənistan onların təhlükəsiz şəkildə qayıtmasını təmin etməlidir. Bəyanatda deyilir: "Biz beynəlxalq ictimaiyyəti, beynəlxalq idman təsisatlarını bu barbarlıq əməlini kəskin şəkildə pisləməyə çağırırıq. Biz həm də Avropa Ağır Atletika Federasiyasını Ermənistana qarşı sanksiya tətbiq etməyə çağırırıq. Hesab edirik ki, baş vermiş bu hadisə Ermənistanın beynəlxalq idman yarışlarını keçirmək, idmançıların təhlükəsizliyini təmin etmək iqtidarında olmadığını göstərir".

Ümumiyyətlə, son dövrlər Hayastanın ölkəmizə qarşı açıq təxribatları intensivləşib. Elə aprelin 11-də hayların Azərbaycana qarşı törətdikləri növbəti təxribat da bölgədə vəziyyəti gərginləşdirmək, barışığa mane olmaq üçün həyata keçirilən daha bir məkrli plan idi. Amma həmin gün hərbi qulluqçularımızın sayıqlığı nəticəsində düşmən təxribatının qarşısı qətiyyətlə alındı, atəş mövqeləri susduruldu.

Vətən müharibəsindən sonra müxtəlif təxribatçı əməllərlə sülh müqaviləsini bağlamaqdan yayınmağa cəhd edən və 10 noyabr üçtərəfli Bəyanatı ilə üzərinə götürdüyü öhdəliklərini yerinə yetirməkdən boyun qaçıran Hayastan Laçın-Xankəndi yolundan təyinatına uyğun olmayaraq hərbi məqsədlər və ölkəmizə qarşı təxribat əməlləri törətmək üçün istifadə edib. Ötən il dekabrın 12-dən etibarən Laçın yolunda ekoaksiya keçirən vətəndaş cəmiyyətimizin üzvlərinin tələbləri arasında bu yoldan yalnız humanitar məqsədlərlə istifadə edilməsi də var. Hayastan tərəfinin beynəlxalq ictimaiyyəti çaşdırıcı vay-şüvənlərinin əksinə, sözügedən yoldan mülki maşınların keçidi üçün heç bir əngəl yoxdur. Hətta aksiya iştirakçılarına yaxınlaşaraq onlardan kömək istəyən bir erməniəsilli şəxsə kömək göstərilməsi ilə bağlı videogörüntülər də hər kəsin yaddaşındadır. Aprelin 4-də isə azərbaycanlı həkimlər Xankəndi-Laçın yolunda Qarabağda yaşayan erməniəsilli vətəndaşlara tibbi yardım göstərərək həyatlarını xilas etdilər və onlarla bərabər Xankəndiyə yollanaraq oradakı xəstəxanamızda da həkimlik missiyalarını layiqincə yerinə yetirdilər.

O da vurğulanası məqamdır ki, Azərbaycanda yaşayan erməni sakinlərin cəmiyyətimizə reinteqrasiya prosesi ilə bağlı rəsmi Bakı əməli fəaliyyət göstərir, bu məsələdə qərarlı olduğunu göstərir.

#### Haylar beynəlxalq idman yarışlarını da məkrli siyasətlərinin alətinə çeviriblər

Lakin müharibənin qalib tərəfi olmasına baxmayaraq, Azərbaycanın rəsmi İrəvana təkmil sülh modeli təklif etməsinə, iki ölkə arasında normallaşmaya nail olunması üçün atdığı və bəzi örnəklərini misal çəkdiyimiz humanizm addımlarına baxmayaraq, Hayastan beynəlxalq havadarlarına güvənərək ölkəmizə qarşı təxribatçı mövqeyindən əl çəkmir.

Bir neçə gün əvvəl Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən Azərbaycan Ordusunun itkin düşmüş əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və



2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu Ermənistan tərəfindən əsir götürülüb.

Erməni mediasında yayılmış videogörüntülərdə əsir götürülmüş Axundov Hüseyn Əhliman oğluna qarşı fiziki işgəncə və qeyri-insani rəftar halları əks olunub. Hayların etnik zəmində azərbaycanlılara qarşı törətdikləri növbəti zorakılıq faktını özündə əks etdirən bu görüntülərdən də aydın olur ki, ermənilər əsgərimizi möhkəm döyərək ona fiziki işgəncə veriblər.

Hayların əsir əsgərimizə qarşı törətdikləri bu cinayət əməlləri beynəlxalq hüquqa ziddir və bir daha təkzibolunmaz şəkildə təsdiqləyir ki, ermənilər xalqımıza qarşı vəhşiliklərini davam etdirirlər.

Aprelin 14-də İrəvanda Azərbaycanın Dövlət Bayrağını yandırmaları da onu göstərdi ki, Hayastan hətta beynəlxalq idman yarışlarını da məkrli siyasətinin alətinə çevirib.

***Yasəmən MUSAYEVA,*** 
***"Azərbaycan"***

# Ermənistan BMT Baş Assambleyasının Beynəlxalq Konvensiyasını barbarcasına pozub

# Dünyanın aparıcı xarici KİV-ində Ermənistan paytaxtında Azərbaycan Bayrağının yandırılması ilə bağlı məqalələr yayımlanıb

**Ermənistanın paytaxtı İrəvanda ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan Bayrağının turnirin təşkilatçılarından olan, rəsmi akkreditasiyadan keçmiş şəxs tərəfindən nümayişkaranə şəkildə yandırılması dünyanın bir sıra aparıcı KİV-inin diqqət mərkəzində olub.**




AZƏRTAC xəbər verir ki, xarici mətbuatda yer alan xəbərlərdə bu çirkin hadisə idman dəyərlərinin bütövlüyünə və ədalətli oyunun universal prinsiplərinə hücum kimi dəyərləndirilib.

**"Reuters"** agentliyinin yaydığı "Azərbaycan Ermənistanda keçirilən ağır atletika çempionatında bayrağın "barbarcasına" yandırılmasına etiraz edib" sərlövhəli məqalədə bildirilib ki, Azərbaycan şənbə günü qonşu Ermənistanda ağır atletika çempionatının açılış mərasimi zamanı Dövlət Bayrağının yandırılmasına kəskin etirazını bildirib. Azərbaycan idmançılarının çempionatda iştirakının qeyri-mümkün olduğunu və onların artıq Gürcüstandan keçməklə Vətənə qayıtmaq üçün Ermənistanı tərk etdiklərini bəyan edib.

Video və foto görüntülərinin təqdim olunduğu xəbərdə Azərbaycanın Gənclər və İdman Nazirliyinin və Milli Olimpiya Komitəsinin bu barədə birgə bəyanat yaydıqları qeyd edilib. Diqqətə çatdırılıb ki, bəyanatda bu hadisə "barbar hərəkət", etnik nifrət və irqçiliyin sübutu kimi sərt şəkildə qınanıb.

Məqalədə iki ölkə arasında uzun illərdən bəri düşmənçilik münasibətlərinin davam etdiyi vurğulanıb, son bir həftə ərzində baş verən toqquşmalarda 7 nəfərin həlak olduğu qeyd edilib.

Böyük Britaniyanın **"Inside The Games"** idman nəşrində yayımlanan xəbərdə isə bildirilib ki, Azərbaycan açılış mərasimində Dövlət Bayrağının yandırıldığı "barbarcasına" insidentdən sonra ağır atletika komandasının Avropa çempionatını tərk etməsini qərara alıb. Məqalədə bu barədə bildirilib: "Ermənistanın paytaxtında komandaların paradı zamanı şounun modelyeri bayrağı gənc qadının əlindən alıb əvvəlcədən planlaşdırdığı və sosial şəbəkədə paylaşdığı hərəkətlə yandırıb. Televiziya şirkətində işləyən Aram Nikolyan polis tərəfindən saxlanılsa da, sonradan heç bir ittiham irəli sürülmədən sərbəst buraxılıb. O, ifadəsində "Mənim yeganə arzum Ermənistan Respublikasının paytaxtı İrəvanda Azərbaycan Bayrağının dalğalanmamasını təmin etmək idi. Mənim bunu etməməli olduğumu düşünənlər varsa, evlərində Azərbaycan Bayrağını assınlar" deyib.

Yazıda bildirilib ki, Beynəlxalq Ağır Atletika Federasiyasının dünya çempionatına da ev sahibliyi etmək istəyən beş ölkədən biri olan Ermənistanda baş verən bu hadisə Avropa Ağır Atletika Federasiyası (EWF) tərəfindən də sərt şəkildə qınanıb. EWF yaydığı açıqlamada Aram Nikolyanın bayrağı yandırmasını idman dəyərlərinin bütövlüyünə və ədalətli oyunun universal prinsiplərinə hücum kimi qiymətləndirərək bu hadisəni qətiyyətlə pisləyib. Avropa Ağır Atletika Federasiyası bu hadisəyə dərhal reaksiya verib, Təşkilat Komitəsinə qəti mövqeyini bildirib və bu yarışın bütün iştirakçılarının təhlükəsizliyi üçün əlavə təminat tələb edib.

Xəbərdə vurğulanıb ki, EWF-in açıqlamasında qeyd olunub: "Azərbaycan nümayəndə heyətinin çempionatı tərk etməli olmasına təəssüflənirik, eyni zamanda bu qərara hörmətlə yanaşırıq. Biz nümayəndə heyəti Ermənistanı tərk edənə qədər onun bütün təhlükəsizlik şəraitinin təmin edilməsində birbaşa iştirak etmişik".

"Inside The Games" nəşrinin yaydığı məqalədə bildirilib ki, Beynəlxalq Ağır Atletika Federasiyası da bu hadisə ilə əlaqədar Avropa Ağır Atletika Federasiyasının mövqeyini dəstəkləyən bəyanat yayıb. Həmin bəyanatda bildirilib: "IWF İrəvanda EWF-in himayəsi altında keçirilən Avropa çempionatının açılış mərasimində Azərbaycan Bayrağının yandırılması ilə bağlı insidenti qətiyyətlə pisləyir və bundan təəssüflənir. Milli rəmzlərə hörmət idmanın əsas dəyəridir və bu prinsipə əməl olunmaması sərt qınaq obyektidir. İdmanı xalqlar arasında birliyin əsas elementi hesab edən IWF bu cür insidentin baş verməsinə heç vaxt dözməyəcək. IWF buna görə də EWF-in bu insidentlə bağlı müvafiq reaksiyasını tamamilə dəstəkləyir və təbii olaraq bütün dünyada ağır atletika yarışlarında idmançılara və nümayəndə heyətlərinə hörmət, ləyaqət və ədalətli oyunla yanaşılmasını gözləyir".

Yazıda həmçinin Ermənistan ilə Azərbaycan arasında münasibətlərin gərgin olmasına toxunulub, bu hadisə ilə əlaqədar Azərbaycanın aidiyyəti qurumlarının, o cümlədən Gənclər və İdman Nazirliyinin və Milli Olimpiya Komitəsinin birgə bəyanat yaydığı bildirilib. Qeyd olunub ki, həmin bəyanatda beynəlxalq ictimaiyyətə və beynəlxalq idman qurumlarına bu iyrənc hərəkəti kəskin şəkildə pisləmək üçün çağırış edilib. Həmçinin Avropa Ağır Atletika Federasiyasına Ermənistana qarşı sanksiyalar tətbiq etməyə çağırış ünvanlanıb, bu hadisənin Ermənistanın beynəlxalq idman yarışlarını keçirə və idmançıların təhlükəsizliyini təmin edə bilmədiyini göstərdiyi bildirilib.

ABŞ-nin **"Barrons"** nəşrində yer alan xəbərdə ötən gün Ermənistanın paytaxtında keçirilən beynəlxalq ağırlıqqaldırma yarışında Azərbaycanın Dövlət Bayrağının yandırılması hadisəsindən sonra idmançılarımızın turnirdə iştirakdan imtina etdikləri bildirilib. Məqalədə bu hadisə ilə əlaqədar Azərbaycanın Gənclər və İdman Nazirliyinin və Milli Olimpiya Komitəsinin yaydığı birgə bəyanatdan aşağıdakı ifadələr sitat gətirilib: "Ermənistanda belə bir nifrət mühitinin hökm sürdüyü, təhlükəsizliyin təmin edilmədiyi bir şəraitdə psixoloji təzyiqlərə görə Azərbaycan idmançılarının yarışlarda normal şəkildə iştirakı mümkünsüzdür. Bütün bunlar nəzərə alınaraq, Azərbaycan idmançılarının vətənə qayıtması barədə qərar qəbul edilib". Həmçinin Avropa Ağır Atletika Federasiyasından Ermənistana sanksiya tətbiq olunması barədə çağırış ünvanlandığı, idmanın siyasiləşdirilməsinin qətiyyən yolverilməz olmasının vurğulandığı qeyd edilib. Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda da insidentin qətiyyətlə pisləndiyi, təqsirkar şəxsin dərhal məsuliyyətə cəlb olunması barədə Ermənistana çağırış edildiyi bildirilib.

Birləşmiş Ştatların **"usnews.com"**, **"msn.com"**, **"iscaninfo.com"** saytlarında yer alan məqalələrdə də Azərbaycanın bu barbarlıq hadisəsinə sərt etirazını bildirdiyi və idmançılarımızın çempionatı tərk etdikləri qeyd olunub.

Ermənistan paytaxtında baş verən bu iyrənc hadisə ilə bağlı xəbərlər Fransa KİV-ində də əksini tapıb. Fransanın **"France24", BFM, "La Depeche", "France Live", "Ouest-France", "Orange Sport"** və digər KİV-ində yer alan xəbərlərdə İrəvanda Avropa çempionatının açılış mərasimində Azərbaycanın Dövlət Bayrağının yandırılması anının görüntüləri təqdim olunub. Məqalələrdə bayrağın yandırılmasına etiraz əlaməti olaraq Azərbaycan idmançılarının turniri tərk etdikləri bildirilib. Həmçinin vurğulanıb ki, Azərbaycan Bayrağını yandıran şəxs polis tərəfindən saxlanılsa da, qısa müddət sonra sərbəst buraxılıb.

Azərbaycan Bayrağının Ermənistan paytaxtında yandırılması hadisəsi barədə xəbər Kanadanın **"National Post"** qəzetində də yer alıb. Qəzetdə yayımlanan xəbərdə Azərbaycanın şənbə günü qonşu Ermənistanda ağır atletika üzrə Avropa çempionatının açılış mərasimi zamanı Dövlət Bayrağının götürülərək yandırılmasından sonra kəskin etirazını bildirdiyi qeyd olunub. Eləcə də Azərbaycanın idmançılarının çempionatda iştirakının qeyri-mümkün olduğunu bəyan etməsi, onların Gürcüstandan keçərək Vətənə qayıtmaq üçün Ermənistanı tərk etdikləri bildirilib. Xəbərdə Azərbaycanın Gənclər və İdman Nazirliyinin və Milli Olimpiya Komitəsinin hadisə ilə bağlı birgə bəyanat yayaraq, Dövlət Bayrağının yandırılmasına sərt etirazlarını bildirdiyi qeyd olunub.

Almaniyanın **"Deutsche Welle"** televiziyasının yaydığı xəbərdə bildirilib ki, Azərbaycan Ermənistanın baş nazirinin iştirakı ilə keçirilən açılış mərasimində bayrağının yandırılmasından sonra milli komandasının İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatında iştirakını dayandırıb. Xəbərdə bayrağın yandırılmasının bu həftə yeni toqquşmalar nəticəsində münasibətlərin gərginləşdiyi dövrə təsadüf etdiyi vurğulanıb. Azərbaycanın Gənclər və İdman Nazirliyinin və Milli Olimpiya Komitəsinin yaydığı birgə məlumatda bayrağın yandırılmasının idmanın nəcib məqsədinin prinsiplərinə tamamilə zidd olan "barbar hərəkət" kimi qiymətləndirildiyi, beynəlxalq ictimaiyyətə və idman təşkilatlarına bu vəhşi hərəkəti kəskin şəkildə pisləmək üçün çağırış ünvanlandığı qeyd olunub.

Məqalədə vurğulanıb ki, erməni mediası Azərbaycan bayrağını yandıran şəxsin açılış mərasimində akkreditə olunmuş dizayner Aram Nikolyan olduğunu bildirilib. O, səhnəyə çıxaraq bayrağı qızın əlindən alaraq yandırıb.

Türkiyənin **"TRT Haber", "Takvim", "HaberGlobal", "Sondakika", "Hürriyet", "Milliyet", "Sabah", "Türkiye"** və digər KİV-ində də yayılan xəbərlər "Avropa Ağır Atletika Federasiyasında skandal: Azərbaycan Bayrağına çirkin hücum" sərlövhəsi ilə yayımlanıb. Xəbərlərdə vurğulanıb ki, Azərbaycanın torpaqlarını işğalçı Ermənistandan azad etməsindən sonra iki ölkə arasındakı münasibətlərin normallaşdırılması istiqamətində addımlar atmağa başlayarkən Ermənistanda keçirilən Avropa Çempionatının açılışında bir nəfər Azərbaycan Bayrağına qarşı çirkin hücum gerçəkləşdirdi.

Rusiyanın **TASS, "İnterfaks", "İzvestiya", "Qazeta", "Regnum", "Komsomolskaya Pravda", 360, "Rossiyskaya Qazeta", RBK, "News.ru", "Lenta", "Kommersant", "Arqumentı i Faktı", ROSBALT", "Vzqlyad", "Vesti Kavkaza", "Kavkazskiy Uzel"** və digər KİV-ində yayımlanan xəbərlərdə də Azərbaycan Bayrağının yandırılmasını əks etdirən görüntülər təqdim olunub, bu hadisədən sonra Azərbaycan idmançılarının Avropa Çempionatında iştirakı dayandıraraq, Vətənə qayıtdıqları bildirilib. Məqalələrdə bu hadisənin Azərbaycanın ictimaiyyətində hiddətlə qarşılandığı, Azərbaycanın Gənclər və İdman Nazirliyinin, Milli Olimpiya Komitəsinin yaydığı birgə bəyanatda idmanın siyasiləşdirilməsinin yolverilməzliyinin qeyd olunduğu bildirilib. Həmçinin qeyd edilib ki, Azərbaycan Xarici İşlər Nazirliyi hadisəyə dərhal münasibət bildirərək, Dövlət Bayrağının yandırılmasını pisləyib, bu cür nifrət aksiyasına qarşı təşkilatçılar tərəfindən heç bir təhlükəsizlik tədbirinin görülməməsinin narahatedici olduğunu və təqsirkarların cəzalandırılmasının vacibliyini bəyan edib.

**"Vesti Kavkaza"** qəzetində yer alan xəbərdə İrəvandakı hadisə ilə 2015-ci ildə Bakıda keçirilən birinci Avropa Oyunları zamanı erməni idmançının mükafatlandırılması mərasimi arasında müqayisə aparılıb. Bildirilib ki, Bakıda erməni idmançı Gevorq Manukyana mükafatı Azərbaycan Prezidenti İlham Əliyev şəxsən təqdim edib. Mükafatlandırma zamanı azərbaycanlı azarkeşlər erməni idmançını fitə basmağa çalışsalar da, Prezident İlham Əliyevin işarəsi ilə zalda dərhal sakitlik hökm sürüb və Azərbaycan Prezidenti bu anlayışa görə azarkeşlərə minnətdarlıq edib.

Qeyd edək ki, bu çirkin hadisə erməni ictimaiyyətində də birmənalı qarşılanmayıb. Əksər sakinlər heç bir ittiham irəli sürülmədən buraxılan Aram Nikolyanı "qəhrəman" kimi qarşıladıqları halda, bəzi şəxslər onun bu iyrənc hərəkətindən utandıqlarını qeyd ediblər. Rusiyanın "gazeta.ru" və "news.ru" saytlarında yer alan xəbərlərdə qeyd olunub ki, Ermənistan parlamentinin deputatı Ovik Ağazaryan sosial şəbəkələrdəki paylaşımında bu hadisədən çox utandığını və beynəlxalq ictimaiyyətdən üzr istədiyini bildirib: "Mən bir vətəndaş və parlamentari kimi xalqımdakı vəhşi və adamyeyən tayfaların təzahürlərini tamamilə aradan qaldırmaq üçün mümkün olan hər şeyi etmədiyimə görə bütün beynəlxalq sivil ictimaiyyətdən üzr istəyirəm. Mən utanıram".

**"Kavkazskiy Uzel"** qəzetinin yaydığı məlumatda qeyd olunub ki, Ermənistanın Avropa Partiyasının lideri Tiqran Xzmalyan da hadisə ilə bağlı paylaşım edərək Aram Nikolyanın əməlini pisləyib. O, feysbukdakı səhifəsində bu barədə bildirib: "Bu, ağır siyasi nəticələri olan antidövlət təxribatıdır. Bayrağın yandırılması qələbə deyil, zəiflik əlamətidir". Məqalədə vəkil Ara Qazaryanın "Aram Nikolyan yəqin ki, özünü əsl qəhrəman kimi hiss edir. Lakin bununla o, yüzlərlə insanın uzun illər ardıcıl əməyinə böyük ziyan vurub. Ümid edirəm ki, o, nə vaxtsa bunu dərk edəcək" ifadələri də oxucuların diqqətinə çatdırılıb.

Rusiyanın **"Vzqlyad"** nəşrində yer alan yazıda qeyd olunub ki, Ermənistanın baş naziri Nikol Paşinyan ölkənin İctimai Televiziyasına turnirin açılış mərasimində Azərbaycan Bayrağını yandıran stilistik studiyanın rəhbəri Aram Nikolyanı işdən çıxarmağı tapşırıb.

**"Bnn.network"** portalında yer alan xəbərdə Ermənistanda Azərbaycana qarşı etnik zəmində nifrət və düşmənçiliyin təcəssümü olan həmin faktla bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən cinayət işinin başlandığı qeyd olunub. Bildirilib ki, Baş Prokurorluq milli nifrət və düşmənçiliyin salınmasına yönəlmiş bu cinayət əməlini törədən Aram Nikolyanın və digərlərinin milli və beynəlxalq məhkəmə məsuliyyətinə cəlb edilmələri məqsədilə xarici ölkələrin müvafiq orqanlarına müraciətlərin göndəriləcəyini və onların cəzalandırılmaları üçün beynəlxalq təşkilatlarla əməkdaşlıq ediləcəyini açıqlayıb.

Qeyd edək ki, Avropa çempionatı kimi mötəbər bir yarışın açılış mərasimində iştirakçı ölkələrdən birinin - Azərbaycan Respublikasının Dövlət Bayrağının yandırılması barədə xəbərlər Xorvatiyanın **"24sata.hr", Ukraynanın "tsn.ua", "sport.nb.ua", "sport.unian.ua", "champion.com.ua", "news.obozrevatel.com", "telegraf.com.ua", "antikor.com.ua", Gürcüstanın "Sportall.ge", İranın "Etemad Online", "Mehr", "Mashreg News", "Fars News",** Hindistanın **"The Hindu", Qətərin "Əl Cəzirə"** və digər ölkələrin KİV-ində də məqalələr dərc olunub.

# REGİONLAR

## "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" bu dəfə Qazaxda müzakirə olunmuşdur

**Milli Məclis və Qazax Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü", "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir!" mövzularında konfrans keçirilmişdir.**





Konfrans iştirakçıları əvvəl Ulu Öndərin adını daşıyan parkdakı abidəsi önünə gül dəstələri düzmüş, xatirəsini yad etmişlər. Sonra iştirakçılar Ümummilli Liderin adını daşıyan mərkəzi ziyarət edərək həyat və fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Qazax Gənclər Evində davam edən konfransda Dövlət himni səsləndirilmiş, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirələri birdəqiqəlik sükutla yad edilmişdir. Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun giriş nitqindən sonra müzakirə olunan mövzular ətrafında məruzələr dinlənilmişdir. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Milli Məclisin deputatları Sabir Rüstəmxanlı, Cavanşir Feyziyev, Nigar Arpadarai, Asim Mollazadə, Nəsib Məhəməliyev, Avropa Şurası Bakı ofisinin rəhbəri Petr Zix, Litvanın ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri Eqidius Navikas və başqaları çıxış edərək Heydər Əliyevin həyat və fəaliyyətindən, müstəqil Azərbaycan dövləti qarşısında göstərdiyi xidmətlərdən danışmışlar.

## Şəmkirdə səyyar tibbi aksiya keçirilmişdir

**Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş silsilə tədbirlər çərçivəsində Şəmkirin Çinarlı qəsəbəsində səyyar tibbi xidmət aksiyası keçirilmişdir.**



Səyyar tibbi xidmət müxtəlif ixtisaslı həkimlər tərəfindən aparılmış, sakinlərə stomatoloji, kardioloji, endokrinoloji və digər xəstəliklər üzrə müayinədən keçmək imkanı yaradılmışdır.

Aksiya zamanı "Şəmkir Gənc Həkimlər" Birliyinin üzvlərindən ibarət həkim briqadası 40 nəfərdən çox sakini müayinə etmiş, nəticədən asılı olaraq onlara müvafiq tövsiyələr və tibbi məsləhətlər verilmiş, əməliyyata ehtiyacı olanlar isə Şəmkir Rayon Mərkəzi Xəstəxanasına dəvət edilmişlər.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

## Füzulidə quruculuq işləri sürətlənir

**İşğaldan azad olunmuş rayonlarda bərpa-quruculuq işləri gündən-günə sürətini artırır ki, bu da səbəbsiz deyil. Vaxtilə yurd-yuvalarından didərgin düşmüş insanlar geriyə dönməyi, doğma torpaqlarında məskunlaşmağı həsrətlə gözləyirlər. İşlərin gedişi göstərir ki, o gün tezliklə gələcək.**

Xəbər verildiyi kimi, bu günlər Füzuli Beynəlxalq Hava Limanının inzibati binasında Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Şəhərsalma məsələləri üzrə İşçi qrupunun iclası keçirilib. İclasda xüsusi vurğulanıb ki, Füzulidəki Mərkəzi Parkın layihələndirilməsi və "ağıllı kənd" konsepsiyası ilə bərpa olunan Dövlətyarlı kəndində aparılan tikinti-quruculuq işlərini daha da sürətləndirmək lazımdır. Müzakirə olunan məsələlərdən biri də daxili yol-küçə şəbəkəsinin layihələndirilməsi ilə yanaşı, yaşayış məntəqələrinin elektrik enerjisi və su ilə fasiləsiz təminatı olub.

O da qeyd olunub ki, ötən müddət ərzində işğaldan azad edilmiş bütün ərazilər kimi, Füzuli rayonunda da genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilib. Qısa müddət ərzində ən yüksək beynəlxalq standartlara cavab verən hava limanı inşa edilərək istismara verilib, Zəfər yolunun çəkilişi yekunlaşıb, Füzuli yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi tikilib. Həmçinin Özbəkistan tərəfindən inşa edilən tam orta məktəb binasının, Qazaxıstan tərəfindən inşa edilən Kurmanqazı adına Yaradıcılıq İnkişaf Mərkəzinin, Mənzil İnşaatı Dövlət Agentliyinin inşa etdiyi yaşayış məhəlləsinin və s. obyektlərin tikintisi sürətlə davam edir. Bütövlükdə tikiləcək evlərə 21593, o cümlədən Füzuli şəhərinə 8009 nəfər əhalinin köçürülməsi planlaşdırılır.

"İşğaldan azad edilmiş ərazilərdə əhalinin dayanıqlı məşğulluğunun təmin edilməsinə dair" Tədbirlər Planı, müvəqqəti yerləşdirilən kamplar, "Böyük Bəhmənli-Şuşa" və "Azad Qaraqoyunlu-Ağdam" magistral qaz kəmərlərinin layihələndirilməsi, Füzuli rayonunda su anbarlarının və sutəmizləyici qurğuların layihələndirilməsi və tikilməsinin vəziyyəti, həmçinin Mədəniyyət Nazirliyinin Qələbə və Memorial parklarının layihələndirilməsi vəziyyəti barədə də söhbət edilib.

Yığıncaqda "Köndələnçay" su anbarının yenidən qurulması və digər məsələlər də müzakirə edilib. Məlumdur ki, Füzuli rayonunun işğaldan azad edilmiş ərazisində 3 su anbarı var - Köndələnçay 1, Köndələnçay 2 və Aşağı Köndələnçay. Milyonlarla kubmetr su tutumu olan bu anbarlardan işğal müddətində Azərbaycan tərəfi istifadə edə bilməyib. Təkcə Aşağı Köndələnçay anbarının su tutumu 62 min hektar ərazini suvarmağa imkan verib. Amma erməni işğalçıları 30 il orada ekoloji terror törədiblər. Təsərrüfatın suya ehtiyacı olduğu müddətlərdə suyun qarşısını kəsiblər. Suya gərək olmayan mövsümlərdə isə anbardan suyu buraxaraq ciddi ziyan törətməkdən həzz alıblar. Ötən il Prezident İlham Əliyev Köndələnçay su anbarında olarkən bu məsələlərə diqqət çəkərək demişdi: "Bu su anbarı Ulu Öndər Heydər Əliyevin göstərişi və təşəbbüsü ilə 1980-ci illərin əvvəllərində inşa edilmişdir. Bunun əsas məqsədi Füzuli rayonunda kənd təsərrüfatının inkişafı idi və minlərlə hektar torpaq bu anbar vasitəsilə suvarılırdı. Biz Vətən müharibəsindən sonra həm Suqovuşan su anbarını nəzarətə götürdük, həm də Köndələnçay su anbarı bizim əlimizdədir. Artıq bu anbarların gələcək istismarı ilə bağlı müvafiq göstərişlər verildi. Azad edilmiş bütün torpaqların su mənbələrinin xəritəsi hazırlanır. Bizim bütün su ehtiyatlarımız, çaylarımız, göllərimiz, su anbarlarımız - bu sərvətimiz indi bizim əlimizdədir. Bu sudan səmərəli şəkildə istifadə etmək üçün yeni kanalların çəkilməsi və köhnə kanalların bərpası məqsədilə artıq vəsait də ayrılıb, müvafiq göstərişlər verildi və geniş proqram icra edilməyə başlanmışdır".



*Füzuli şəhəri yaxın zamanlarda belə olacaq*

Hər üç anbarı işlək əziyyətə gətirmək üçün hazırda tədbirlər görülür. Artıq anbarların suyu boşaldılıb, bəndlərdə, suburaxıcı qurğularda, selötürücü kanallarda təmir işləri həyata keçirilir. Anbarların bərpası başa çatdıqdan sonra sudan Füzuli rayonunun həm işğaldan azad edilmiş, həm də işğal olunmamış kəndlərinin sakinləri istifadə edəcəklər.

Bu ərazidə Quruçay da var. Bahardan savayı, ilin digər fəsillərində demək olar ki, çay quruyur. Baharda isə çaya sel gəlir, daşqın baş verir. Selin qarşısını almaq üçün digər üç anbarla birlikə onun da üzərində qoruyucu bənd tikilir, sipərlər yenilənir, suaşıran beton üzlüyə alınır və su təmizləyici qurğu betonlanır. Çayda su anbara gedəcək səviyyədən çox olarsa, bunun üçün əlavə suburaxıcı da quraşdırılır ki, onun vasitəsilə əlavə su çayın məcrasına ötürüləcək.

Həm Köndələnçay 1, Köndələnçay 2 və Aşağı Köndələnçay su anbarlarında, həm də Quruçayda görülən təmir-bərpa işlərinin bu ilin oktyabr ayında başa çatdırılması nəzərdə tutulub.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Köhnəqışlaq təzə günə çıxıb

### Ağstafanın üç erməni kəndinin əhatəsində olan kəndində həyat öz axarı ilə davam edir

**44 günlük Vətən savaşında ölkəmizin sərhəd bölgələrində yerləşən kəndlərimizin sakinləri də səksəkəli həyat yaşadılar. Amma onlar düşmənin hər cür təxribatına uymayaraq təmkinliklərini qoruyub saxladılar.**

Belə kəndlərdən biri də Ağstafanın Köhnəqışlaq kəndi oldu. Ermənilər tərəfindən atılan güllələr, mərmilər kənd sakinlərini qətiyyən qorxutmadı. Həmin qanlı-qadalı günlərdə bir nəfər də olsun kəndi tərk etmədi. Hamı bilirdi ki, Azərbaycan Ordusu düşmənə layiqincə cavab verməyə iqtidarındadır.

Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucova sərhəd kəndinə getmək və insanların bugünkü qayğıları ilə maraqlandığımızı bildirdik.

- Var olsun ordumuz. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ermənilərə layiqli cavab verdi. İndi sərhəd kəndlərimizdə həyat öz axarı ilə gedir. Belə kəndlərdən biri də Köhnəqışlaqdır. Kənd Ermənistanla 12 kilometr həmsərhəddir. Böyük qələbəmizdən sonra sakinlər rahat nəfəs alırlar. Kəndin qaz, su, elektrik enerjisi ilə təminatı yüksək səviyyədədir. Hazırda kənddən keçən Həsənsu çayından evlərə içməli və əkin sahələrinin suvarılması üçün yeni su xətləri çəkilir. Layihəyə əsasən, kənddə hər iki evdən birinin qarşısında bulaq olacaq. Həmin bulaqlara veriləcək içməli suyun təmizlənməsi üçün sutəmizləyici qurğu inşa edilir. İşlərin təxminən 4-5 aya başa çatdırılması nəzərdə tutulur. Əkin sahələrinin suvarılması üçün isə 11 kilometr beton kanal çəkilir. Artıq bir kilometrdə işlər yekunlaşmışdır, - deyə S.Orucov cavab verdi.

Öyrəndik ki, rayon icra hakimiyyətinin başçısı tez-tez kənddə sakinlərlə səyyar görüşlər keçirir. Qaldırılan bütün məsələlər demək olar ki, öz həllini tapır. Məsələn, elə bu yaxınlarda keçirilən səyyar görüş zamanı sakinlərin su çəkilişi zamanı qazılmış ərazilərin üstünün gec örtülməsi ilə bağlı şikayətləri operativ həll edildi.

Amma "yüz eşitməkdənsə, bir görmək yaxşıdır" deyiblər. Odur ki, Köhnəqışlaq kəndinə yola düşdük. Hava bir qədər yağışlı və dumanlı olsa da, çox çəkmədi açıldı. Geniş və rahat yol bizə imkan verdi ki, ətrafı diqqətlə seyr edək. Hər tərəfdə baharın ılıq nəfəsi duyulurdu. Dağlar, dərələr yamyaşıl örpəyə bürünmüşdü. Yolboyu əkilmiş müxtəlif meyvə ağaclarının açmış çiçəkləri təbiətə gözəllik verirdi. Bizə bələdçilik edən rayon icra hakimiyyətinin nümayəndəsi Nəsimi Hacıyev mənə tərəf baxıb dedi:

- Görürsünüz, buraların necə gözəl təbiəti var. Turizm üçün olduqca əlverişli olan bu ərazilər yəqin ki, gələcəkdə yerli və xarici turistlərin sevimli ünvanlarından olacaq.

Doğrudan da, turizmin inkişafı üçün burada hər cür imkan və şərait var. Buz bulaqları, gur çayları, uca dağları, zəngin flora və faunası olan bu yerlər həqiqətən insanı valeh edir.



Bizi Köhnəqışlaq kənd icra nümayəndəsi Tural Həsənov və kənd bələdiyyəsinin sədri Mail Həsənov qarşıladı. Bir qədər söhbətdən sonra onlar kənd haqqında geniş məlumat verdilər. Bildirdilər ki, Köhnəqışlaq 3 erməni kəndinin - Tatlı, Ağalar və Vəli (sonralar ermənilər bu adları dəyişiblər) kəndlərinin əhatəsində yerləşir. Kənddə 198 təsərrüfat var. Əhalisi 700 nəfərdən çoxdur. Köhnəqışlağın qaz, işıq, su problemi yoxdur. Kənddə yeni məktəb binası inşa edilib. Köhnə məktəb binası isə rayon icra hakimiyyəti başçısının təşəbbüsü ilə təmirdən sonra uşaq bağçasına verilib. Kənddə polis məntəqəsi, ATS binası, həkim məntəqəsi də fəaliyyət göstərir. Sakinlər internet xidmətindən istifadə edirlər.

Qarabağ müharibəsi başlayandan indiyədək kənd 15 şəhid verib. Onun 7-si hərbçi, 5-i isə mülki şəxsdir. 90-cı illərdə, eləcə də Aprel döyüşlərində 20-dən artıq fərdi ev və inzibati bina dağılıb. Ərazilərin Yenidən Qurulması və Bərpası Agentliyi tərəfindən kənddə dağılmış 7 ev yenidən tikilmiş və bir neçə inzibati bina təmir edilmişdir. Bundan başqa, 60 ailəyə evini təmir etmək üçün tikinti materialları verilmişdir.

Onu da qeyd edək ki, müharibə zamanı nəinki kənd sakinlərindən heç kim kəndi tərk etməmiş, əksinə, yeni ev tikdirənlər olmuşdur. Təbiət Hüseynov, Ramin Namazov yaraşıqlı ev tikdirmiş, həyətyanı sahələrində bağ salmışlar. 44 günlük Vətən müharibəsində isə 13 kənd sakini iştirak etmişdir. Onlardan iki nəfəri yaralanmışdır.

Kənd camaatının əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır. Hazırda kənddə 348 hektar əkinəyararlı torpaq sahəsi var ki, onun da 168 hektarı pay torpaqlarıdır. Kənd bələdiyyəsinin 10 hektar torpaq sahəsi ermənilər tərəfindən minalandığı üçün istifadə edilmir. Hər il kənddə 110 hektar taxıl əkilir. Keçən il hektardan 25 sentner taxıl götürən sakinlər cari il bu rəqəmin bir qədər artıq olacağını dedilər. Yeri gəlmişkən, kənddə 5 artezian quyusu qazılıb.

Kənddə heyvandarlıq da inkişaf edib. Hazırda köhnəqışlaqlılar 490 baş iribuynuzlu, 1540 baş xırdabuynuzlu heyvan saxlayırlar. Arıçılıqla məşğul olanlar da az deyil. Kənddə 80 arı ailəsi saxlanılır. İcra nümayəndəsinin dediyinə görə, keçən il hər arı ailəsindən 10 kiloqram bal götürülmüşdür.

Sakinlərin düşmən gülləsindən qorunması üçün kəndin məktəb, tibb məntəqəsi və digər mühüm sosial obyektlərinə istinad divarları çəkilmişdir. Bundan başqa, kənd sakinlərinin rayon mərkəzinə rahat gedib-gəlməsi üçün 4 mikroavtobus işləyir.

Yeni tikilmiş bir evin qapısını döydük. Bizi ev sahibi Taleh Şıxıyev qarşıladı. 5 nəfər ailə üzvü olduğunu söylədi. Dedi ki, sağ olsun dövlətimiz, ermənilərin dağıtdığı evimin yerində yeni ev tikdilər: "Bir daha yəqin etdik ki, dövlətimiz hər zaman vətəndaşının yanındadır. İndi dolanışığımız pis deyil. Qapımızda inək, qoyun, toyuq-cücə saxlayırıq. 1,5 hektar pay torpağımız var. Bir hektarda taxıl, qalanında isə kartof və digər bostan bitkiləri yetişdiririk ki, bu da ailəmizi təmin edir".

Göründüyü kimi, 44 günlük Vətən müharibəsində qazandığımız qələbə sərhəd kəndlərimizin sakinlərində rüh yüksəkliyi ilə yanaşı, işgüzarlıq da yaratmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Şəhid anasının kitabı təqdim olunub

**Sumqayıt şəhər Poeziya Evində Vətən müharibəsinin şəhidi Səbuhi Həsənquliyevin anası Maisə Səbuhinin "Şəhidlik Tanrı hədiyyəsidir" adlı kitabının təqdimatı olub.**

Şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri, şair və yazıçılar, sənət adamlarının da iştirak etdikləri tədbir "Şəhid analarına dəstək" İctimai Birliyinin və Sumqayıt Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə reallaşıb.

Təqdimat Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Vətənin bütövlüyü uğrunda şəhid olan qəhrəman oğulların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Müəllif "Şəhidlik Tanrı hədiyyəsidir" kitabının Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərə həsr etdiyi şeirlərdən ibarət olduğunu bildirib. O, kitabın "Azəri" poliqrafiyanın direktoru Mirfazil Əliyevin maddi dəstəyi ilə nəşr olunduğunu minnətdarlıq hissə ilə vurğulayıb.

Şəhid general Polad Həşimovun anası Səmayə xanım, "Şəhid analarına dəstək" İctimai Birliyinin sədri, şəhid Əbdülməcid Axundovun anası Ceyran Həsənova, şəhid Əlizamin Mustafalının anası Ülviyyə Mustafalı və digərləri çıxış edərək kitabın gənc nəslin formalaşmasında rolundan, vətənpərvərlik duyğuları aşılamasından danışıblar.

Sonda vətənpərvərlik mahnıları ifa olunub, şeirlər səsləndirilib.



*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

## Kürdəmirdə müharibə iştirakçıları üçün yaradılan təsərrüfatlara baxış olub

**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Elxan İbrahimovla birgə Kürdəmir rayonunda müharibə iştirakçıları üçün özünüməşğulluq proqramı əsasında yaradılan təsərrüfatlara baxış keçiriblər.**

Vətən müharibəsi iştirakçısı Röyal Mövlayev özünüməşğulluq proqramı çərçivəsində kişi bərbərxanası zərfi üzrə avadanlıqlarla təmin edilərək öz kiçik biznesini qurub. Digər müharibə iştirakçısı İmran Səlimov isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi"nin dəstəyi ilə mebellərin bantlanması üzrə kiçik biznes sahəsini yaradıb.

Hər iki müharibə iştirakçısı göstərilən sosial dəstəkdən razılıqlarını ifadə edib, qayğıkeşliklə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Onlar verilmiş aktivlərdən düzgün istifadə edərək kiçik bizneslərini inkişaf etdirməyə çalışdıqlarını vurğulayıblar.



Məlumat üçün bildirək ki, 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək proqramı çərçivəsində həmin kateqoriyalardan olan 17,4 min nəfər aktiv məşğulluq proqramlarına, o cümlədən 9,8 min nəfər özünüməşğulluq proqramına cəlb olunub.

# Yəməndə 9 ildir davam edən müharibə başa çatır?

## Hökumətlə hövsi üsyançıları arasında əsirlərin mübadiləsi haqqında razılıq əldə olunub





**Doqquz ilə yaxındır ki, müharibənin davam etdiyi Yəməndə düşmənçilik edən tərəflər - İran hakimiyyətinin dəstəklədiyi hövsi üsyançıları ilə hökumət qüvvələri arasında çoxdan gözlənilən əsir mübadiləsi başlayıb.**

Əsirlərin dəyişdirilməsi barədə razılaşma isə Çinin vasitəçiliyi ilə iki regional güc, Yəməndə hövsilərə qarşı mübarizə aparan koalisiyaya başçılıq edən Səudiyyə Ərəbistanı ilə İran arasında diplomatik "istiləşmənin" birbaşa nəticəsidir.

Xatırladaq ki, bir müddət əvvəl Səudiyyə Ərəbistanı və İran diplomatik münasibətləri bərpa etmək barədə razılığa gəliblər. Bu məsələdə Çin vasitəçilik edib. Tərəflər 2016-cı ildə kəsilən diplomatik münasibətləri bərpa etmək barədə ötən ay razılığa gələndən dərhal sonra bir çox ekspertlər ehtiyatla Yəməndə qanlı müharibənin tezliklə bitəcəyindən danışırlar.

Həftənin əvvəlində Səudiyyə Ərəbistanı və Oman nümayəndə heyətlərinin Yəmənin paytaxtı Sənada hövsi üsyançı rəsmiləri ilə danışıqlar apardığı bildirilir. BMT-nin mətbuat katibi Stefan Düjarrik bunu Yəməndə və regionda gərginliyi azaltmaq üçün çoxdan gözlənilən addım adlandırıb.

Yaxın günlərdə 900-ə yaxın məhbusun dəyişdirilməsi gözlənilir. İlk azad edilənlər arasında Yəmənin keçmiş prezidenti Əbd-Rəbbo Mənsur Hadinin qardaşı Nəsir Mənsur Hadi, habelə 2015-ci ildən Sənada hövsilərin nəzarətində olan Yəmənin keçmiş müdafiə naziri Mahmud Subeyhi də var.

Yəməndə hakimiyyətlə üsyançılar arasında qarşıdurma 2015-ci ilin əvvəlində hövsilərin "Ənsar Allah" hərəkatının ölkənin qərb ərazilərinin böyük hissəsinin nəzarətini ələ keçirməsi və prezident Əbd-Rəbbo Mənsur Hadini xaricə qaçmağa məcbur etməsi ilə kəskinləşib.

2015-ci ilin martında Səudiyyə Ərəbistanının rəhbərlik etdiyi ərəb koalisiyası qüvvələri Sənada beynəlxalq səviyyədə tanınan hökumətə hakimiyyəti bərpa etmək adı ilə Yəmənə yeridilib.

Təxminən doqquz ildir davam edən münaqişə BMT-nin dünyanın ən ağır böhranı adlandırdığı humanitar fəlakətə gətirib çıxarıb. Təşkilatın məlumatına görə, ölkədə 23 milyona yaxın insan aclıqdan, qida çatışmazlığından və digər humanitar problemlərdən əziyyət çəkir. Müharibə nəticəsində neft hasilatı ciddi şəkildə pozulduğu və Səudiyyə Ərəbistanı tərəfindən xaricdən gələn tədarükü əngəlləndiyi üçün ölkə həm də kəskin yanacaq böhranı yaşayır.

Yəməndə döyüşlər nəticəsində 150 mindən çox adam həlak olub. Bu il BMT Yəmən əhalisinə yardım üçün 4,3 milyard ABŞ dolları istəyib. Ötən il təşkilatın vasitəçiliyi ilə Yəməndə 6 aylıq atəşkəs barədə razılıq əldə etmək mümkün olub.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Son üç ay ərzində qanunsuz dövriyyədən götürülmüş narkotik vasitələrin dəyəri 66 milyon manatdan çoxdur

Bu ilin yanvar-mart ayları ərzində hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 3 min 173 cinayət faktı aşkarlanıb. Onlardan 1048-i narkotik vasitələrin qanunsuz satışı, 2087-si narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 17-si qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 21-i isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub. Bu barədə AZƏRTAC-a Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasından məlumat verilib.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 2 ton 11 kiloqram 394,952 qram narkotik vasitələrin və psixotrop maddələrin 575 kiloqram 997,924 qramını heroin, 1 ton 221 kiloqram 854,206 qramını marixuana, 67 kiloqram 73,092 qramını tiryək, 42 kiloqram 555,635 qramını həşiş, 102 kiloqram 936,745 qramını psixotrop maddələr, 977,35 qram digər narkotik vasitələr təşkil edib. Həmçinin göstərilən dövr ərzində 18 min 403 ədəd həb metadon, 252 ədəd çətənə bitkisi, eləcə də 477,668 qram, 1540 ədəd kapsul və 953 ədəd həb güclü təsir edən maddə qanunsuz dövriyyədən götürülüb.

Hesabat dövründə narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 1972 nəfər cəlb edilib ki, onlardan 18-25 yaşadək 114 nəfər, 26-29 yaşadək 334 nəfər, 30 yaş və ondan yuxarı isə 1524 nəfər təşkil edib. Həmin şəxslərdən 1934-ü kişi, 38-i qadın olub. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 31 nəfəri xarici ölkə vətəndaşıdır.

Cinayət məsuliyyətinə cəlb edilmiş 31 nəfər xarici ölkə vətəndaşından 14-ü İran İslam Respublikası, 9-u Türkiyə, 5-i Rusiya Federasiyası, 3-ü Gürcüstan vətəndaşı olub.

Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 76 fakt aşkar edilib və həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 741 kiloqram 185,912 qram və 18 min 403 ədəd həb metadon narkotik vasitələr və 1540 ədəd kapsul, 473 ədəd həb güclü təsir edən maddə çıxarılıb.

Ümumilikdə, aşkar edilmiş cinayətlərin 64-ü qrup halında törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən 413 kiloqram 844,2 qram və 190 ədəd metadon narkotik vasitə və psixotrop maddə müsadirə edilib. 627 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilib və onlardan 368 kiloqram 197,1 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə edilib.

Cari ilin yanvar-mart ayları ərzində qanunsuz dövriyyədən götürülmüş 2 ton 11 kiloqram 394,952 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 66 milyon 547 min 143 manat kimi qiymətləndirilir.

Təhlil göstərir ki, ötən ilin birinci rübü ilə müqayisədə bu ilin müvafiq dövrü ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən aşkar edilən faktların ümumi sayı 378, o cümlədən qanunsuz satış ilə bağlı faktların sayı 38, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 339, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 1 fakt, qaçaqmalçılıqla bağlı cinayətlərin sayı 22 fakt, qrup halında olan cinayətlərin sayı 1 fakt, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı 240 nəfər, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin çəkisi isə 130 kiloqram 919,26 qram artıb.

Bu ilin müvafiq dövrü ərzində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 19 min 832 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 581 nəfərindən 347-sinin istifadəçi olması müəyyən olunmuş və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilib.

Respublika QİÇS-lə Mübarizə Mərkəzinin verdiyi məlumata əsasən ölkədə narkomanların İnsanın İmmunçatışmazlığı Virusuna yeni yoluxma hadisələrinin sayında azalma müşahidə olunur. Ötən 3 ay ərzində İİV-ə 346 nəfər yoluxub. Onlardan 329 nəfəri Azərbaycan vətəndaşları, 17 nəfəri isə əcnəbilər olub. Azərbaycan vətəndaşları arasında 25 nəfəri (7,6 faizi) İnyekson Narkotik İstifadəçiləri olub.

Cari ilin yanvar-mart ayları ərzində 802 - qaynar xətt telefon zəng xidmətinə 295 vətəndaş müraciəti daxil olub ki, onların 45-i narkotik vasitələrin qanunsuz dövriyyəsi, 144-ü narkotik asılılıqdan müalicə, 106-sı isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olub. Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 189 məktub ünvanlanıb.

Belə ki, 802 - qaynar xətt telefon zəng xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında müvafiq cinayət işləri qaldırılıb və qanunsuz dövriyyədən küllü miqdarda narkotik vasitələr götürülüb, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilib, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilib.


# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Pravoslav inanclı vətəndaşlarımız müstəqil dövlətimizin hərtərəfli inkişafına layiqli töhfələr verirlər
Yeni strateji tərəfdaş
Zərifə Əliyeva - 100
Yüksək əqidə
Türkiyə Azərbaycanın gücünə güc qatır
Erməninin vəhşi xisləti dəyişmir
Sarkisyan Paşinyanı saxtakarlıqda ittiham edir
Fransa polisi növbəti dəfə qəddarlığı ilə diqqət çəkdi
Azərbaycanda ilk dəfə birinci rübdə 1 milyard dollara yaxın ixrac həyata keçirildi
Ermənistanda Avropa Çempionatının açılışında Azərbaycan bayrağı yandırılıb


# XRİTDX: "İlin birinci rübündə "AzstateNet" dövlət şəbəkəsində 148 milyon 130 min zərərli keçid bloklanıb"

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) dövlət qurumlarının informasiya təhlükəsizliyinin təmin olunması məqsədilə cari ilin birinci rübündə gördüyü işlərlə bağlı statistik məlumatları açıqlayıb.

XRİTDX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, rüb ərzində "AzstateNet" dövlət şəbəkəsində 148 milyon 130 min zərərli keçid yeni nəsil mühafizə avadanlıqları, 906 min 600 zərərverici virus mərkəzləşdirilmiş antivirus sistemi vasitəsilə bloklanıb. Həmçinin virus tərkibli 29 min 700 sənədin xüsusi mühafizə sistemləri vasitəsilə aşkarlanaraq dövlət qurumlarına göndərilməsinin qarşısı alınıb.

# Komando bölmələri praktiki atış çalışmalarını icra ediblər



Cari ilin döyüş hazırlığı planına əsasən Əməliyyat (Komando) bölmələrində atəş hazırlığı üzrə praktiki çalışmalar yerinə yetirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, atıcı silahlardan, eləcə də döyüş maşınlarının ştat silahından şərti düşmən hədəflərinin yerindən və hərəkətdə məhv edilməsi üzrə tapşırıqlar müvəffəqiyyətlə icra edilib. Çalışmalarda əsas diqqət hərbi qulluqçuların silahlardan istifadə bacarıqlarının artırılması və döyüş vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.

Komandolar qarşıya qoyulan tapşırıqları yüksək peşəkarlıqla yerinə yetiriblər.

## Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

# Ekoloji terror dayandırılsın!

**Azərbaycanlı ekofəalların və könüllü gənclərin Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dinc etiraz aksiyası 126 gündür davam edir.**



AZƏRTAC xəbər verir ki, Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən aksiya iştirakçıları ötən gecəboyu da yüksək fəallıq nümayiş etdirib, səhər saatlarında hər zaman olduğu kimi, Azərbaycanın Dövlət Himnini səsləndiriblər.

Aksiya iştirakçılarının tələbi dəyişməz olaraq qalır. Onlar ekoloji terrorun dayandırılması ilə bağlı Azərbaycan, ingilis və rus dillərində şüarlar səsləndirirlər. Aksiya iştirakçıları tələbləri yerinə yetirilənədək etirazlarını davam etdirəcəklərini bildirirlər.

Həmişəki kimi, etirazçıların toplaşdığı ərazidən keçən yolda nəqliyyatın sərbəst hərəkətinə heç bir maneə yoxdur. Ekoaksiyanın keçirildiyi ərazi humanitar məqsədlərlə istifadə olunan avtomobillərin keçidi üçün tam açıqdır.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

# Ölkənin bəzi yerlərində hava yağıntılı olacaq




Azərbaycanda aprelin 16-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz yarımadanın bəzi yerlərində az yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 10-12°, gündüz 15-19° isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunundan 772 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə havanın arabir yağıntılı olacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 8-13°, gündüz 17-22° isti, dağlarda gecə 0-5°, gündüz 5-10° isti olacağı ehtimal edilir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5629
Sifariş 907

Qiyməti 40 qəpik